

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

### Qarabağdakı soyqırım cinayətlərinin tanınmasının beynəlxalq əhəmiyyəti




6

№ 095 (7020)

30 may 2024-cü il.
Qiymәti 60 qәpik

# Böyük Qayıdışın Xocalı səhifəsi



3

Prezident İlham Əliyev: "Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik"

# Hədəfə tuş gələn və DAĞILMAQDA OLAN ÜÇLÜK



5

### Motivasiya və effektli işçi yetişdirməyin yolları



10

### İnsan ekosistemi necə məhv edir?



13

### İstismara yararsız avtomobillər necə yığışdırılacaq?



14

### Qərb Gürcüstanda hücuma keçir



7

### Dil "qəssabları"



6

# Ağdam yeni düzəndə: təməli qoyulan kəndlərimiz

Bu gün işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Artıq Zəngilan rayonu Ağalı kəndində, Tərtərin Talış kəndində, Füzulidə, Laçında əzəli sakinlər yurd salıblar. İnsanların doğma yerlərdən səsləri eşdilir. Həmin ərazilərin hər bir daşı, qayası, çayı bu səslər üçün qəribsəmişdi. Ağdam şəhəri də artıq yenidən qurularaq, öz əzəli sakinlərini qoynuna alacaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban ƏliyevanınAğdam rayonuna səfərləri və burada yeni müəssisələrin təməllərinin qoyulması tezliklə Ağdamın müasir bir məkana çevriləcəyindən və sakinlərinin əzəli torpaqlarına qayıdacağından xəbər verir. Səfərlər çərçivəsində dövlətimizin başçısının görülən işlərlə tanışlığı və yeni təməllərin qoyulması, tapşırıq və göstərişlərin verilməsi Ağdamın tezliklə qurulmasının göstəricisidir."Qafqazın xirosiması" Ağdam bu gün böyük quruculuq və abadlıq meydanıdır. Bildiyimiz kimi, 10 noyabr 2020-ci ildə Ermənistanın qol çəkdiyi üçtərəfli bəyanatda qeyd edilən Azərbaycan rayonlarının işğaldan azad edilməsi cədvəlinə uyğun olaraq, 20 noyabr 2020-ci ildə erməni silahlı birləşmələri Ağdam rayonunu tərk etdi. 20 noyabr 2020-ci ildə Azərbaycan ordusu Ağdama daxil oldu və təhlükəsizliyin təmin edilməsi üçün zəruri tədbirlərin icrasına başlanıldı. Ağdam şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı ucaldıldı.Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çevirib, şəhəri yerlə-yeksan ediblər. Buna görə Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan silahlı qüvvələrinin daşı-daş üstə qoymadığı Ağdam şəhəri Azərbaycan dövləti tərəfindən yenidən salınır.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 28-də Ağdam rayonuna səfəri çərçivəsində təməlqoyma mərasimləri bu ərazini tezliklə müasir bir şəhər olaraq əzəli sakinlərin ixtiyarına verilməsini bir daha təsdiqləyir. Cənab Prezident Ağdam rayonunun Tağıbəyli kəndinin təməlini qoyub.





### TAĞIBƏYLİ KƏNDİNƏ 3840 NƏFƏR KÖÇÜRÜLƏCƏK

Qeyd edək ki, Tağıbəyli kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Kənddə 725 ailə - 3018 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, ərzaq mağazası, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, qoyun ferması və üzüm bağları fəaliyyət göstərib. O cümlədən Qarabağın məşhur seyidlərindən olan Fuğara ağanın ocağı da burada yerləşir. Kəndin layihələndirilən ərazisi 255,31 hektardır. Kəndə 3840 nəfərin köçürülməsi nəzərdə tutulur. Bunun üçün 885 fərdi ev inşa ediləcək. Layihələndirilən ərazi Tağıbəyli və Suma kəndlərinin ərazisindən ibarətdir. Birinci mərhələdə layihələndirilən sahə 78,05 hektardır və buraya 108 ailənin köçürülməsi planlaşdırılır. Bu mərhələdə tikiləcək 108 evin 22-si ikiotaqlı, 54-ü üçotaqlı, 27-si dördotaqlı, 5-i isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 264 şagird yerlik məktəb binası, 80 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, kitabxana, qonaq evi, ticarət mərkəzi, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, sənətkarlıq emalatxanası, kənd meydanı, Bayraq meydanı, park, yanğınsöndürmə deposu (2 maşın yerlik), qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu və bazar kompleksi inşa ediləcək.

### GÜLLÜCƏ KƏNDİNDƏ BİRİNCİ MƏRHƏLƏDƏ 113 EV İNŞA EDİLƏCƏK

Ağdamın Güllücə kəndi də yeni həyatına qədəm qoyub. Azərbaycan Prezidenti İlham Əliyev Ağdam rayonunun Güllücə kəndinin təməlini qoyub. Burada yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Kənddə 988 ailə - 4003 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, üzüm emalı zavodu, ərzaq mağazası, aptek, maşın-traktor parkı, kənd təsərrüfatı məhsulları anbarı, mal ferması və üzüm bağları var idi. Ərazisi 388,44 hektar olacaq kənddə 3992 nəfərin məskunlaşdırılması nəzərdə tutulur. Güllücə və İlxıçılar kəndlərinin ərazisindən ibarət olacaq bu kənddə 1042 fərdi ev inşa ediləcək. Birinci mərhələdə layihələndirilən ərazi 225 hektar olacaq. Buraya 113 ailənin köçürülməsi planlaşdırılır. Kənddə birinci mərhələdə inşa ediləcək 113 evin 22-si ikiotaqlı, 57-si üçotaqlı, 28-i dördotaqlı, 6-sı isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 480 şagird yerlik məktəb binası, 120 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, ticarət mərkəzi, bazar, idman-sağlamlıq mərkəzi, inzibati bina, çoxfunksiyalı bina (poçt, bank filialı, ofis), mal-qara ferması, yanğınsöndürmə deposu (2 maşın yerlik), kənd meydanı, Bayraq meydanı, çörək sexi inşa olunacaq.

### YENİDƏN QURULAN ŞOTLANLI VƏ NƏMİRLİ KƏNDLƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdama səfəri çərçivəsində rayonunun Nəmirli və kəndlərinin də təməlini qoyub.Nəmirli kəndində 624 ailə - 2515 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, üzüm emalı zavodu, ərzaq mağazası, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, heyvandarlıq ferması və üzüm bağları fəaliyyət göstərib. Kəndin layihələndirilən ərazisi 211 hektardır. Buraya 3036 nəfərin köçürülməsi planlaşdırılır. Bunun üçün 759 fərdi ev inşa ediləcək. Layihələndirilən ərazi Nəmirli və Şuraabad kəndlərinin ərazisindən ibarətdir. Birinci mərhələdə layihələndirilən ərazi 50,22 hektardır və buraya 179 ailənin köçürülməsi nəzərdə tutulur. Bu mərhələdə tikiləcək 179 evin 36-sı ikiotaqlı, 90-ı üçotaqlı, 44-ü dördotaqlı və 9-u isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 528 şagird yerlik məktəb binası, 80 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, kitabxana, qonaq evi, ticarət mərkəzi, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, kənd meydanı, Bayraq meydanı, park, qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu, bazar kompleksi yaradılacaq.Dövlət başçımız tərəfindən rayonunun Şotlanlı kəndinin də təməli qoyulub. Şotlanlı kəndində isə yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Sakinlər buraya Qubadlı rayonunun Zilanlı kəndindən köç ediblər. Kənddə 606 ailə - 2542 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, ərzaq mağazası və üzüm bağları fəaliyyət göstərib.Şotlanlı və Umudlu kəndlərinin ərazilərini əhatə edəcək bu kəndin layihələndirilən ərazisi 197,4 hektardır. Buraya 3 min nəfərin köçürülməsi nəzərdə tutulur. Bunun üçün 750 ev tikiləcək. Birinci mərhələdə layihələndirilən ərazi 51 hektardan çoxdur və buraya 205 ailənin köçürülməsi planlaşdırılır. Tikiləcək 205 evin 41-i ikiotaqlı, 103-ü üçotaqlı, 51-i dördotaqlı və 10-u isə beşotaqlı olacaq. Burada 540 şagird yerlik məktəb binası, 90 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi və kitabxana, qonaq evi, ticarət mərkəzi, bazar, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, kənd meydanı, Bayraq meydanı, park, yanğınsöndürmə deposu (2 maşın yerlik), qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu yaradılacaq.

### AĞDAMDA BAŞ PLANA UYĞUN SALINAN YAŞAYIŞ MƏHƏLLƏLƏRİ

Bildiyimiz kimi, Ağdamda Xıdırlı kəndində inşa işləri davam edir. Ağdam şəhərininmərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri,təhsil, idarətmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır.Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmişərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatındaalternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir.

### Müasir şəhərsalma həlləri əsas götürülməklə yeni şəhər inşa olunur

Baş Plana əsasən, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Bu məqsədlə "Agdam City Hotel" və "Hilton Garden Inn" layihələri icra edilir. Şəhərdə İşğal və Zəfər muzeyləri kompleksi də yaradılır. Kompleks İşğal muzeyindən başlayacaq və Zəfər muzeyi ilə başa çatacaq. Onların arasında isə Xatirə bağı yerləşəcək. Ərazidə dağıntılar olduğu kimi saxlanılacaq. Muzey erməni vandallığının və işğal tarixinin şahidi olaraq gələcək nəsillərə Ağdamın 30 illik acı taleyini çatdıracaq, tarixi həqiqətləri unutmağa imkan verməyəcək.Şəhərin mərkəzi hissəsində 960 yerlik ümumtəhsil məktəbi də tikiləcək. Muğam Mərkəzi isə birmərtəbəli və ikimərtəbəli bloklardan ibarət olacaq. Şəhərdə salınacaq Mərkəzi park üçün 5 hektar ərazi ayrılıb. Parkın ərazisi 4 zonaya bölünüb və insanların asudə vaxtlarının səmərəli keçirmələri üçün lazımi şərait yaradılacaq.İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Böyük Qayıdışın Xocalı səhifəsi

## Prezident İlham Əliyev: "Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik"



***Böyük Qayıdış tarixində daha bir əlamətdar hadisəyə - yaddaşımızda daşlaşacaq bir qayıdışa Xocalı qayıdışına şahidlik etdik. 32 il həsrətlə, intizarla, göz yaşları içərisində gözlədiyimiz tarixi bir gün. Yüzlərlə insanın qanı tökülən bir şəhərə qayıdış, inləyən, sızlayan bir şəhərə qayıdış. Bir gecənin içində məhv olan sakinləri dərbədər düşən, qocası, uşağı zillətlə məhv edilən bir torpağa qayıdış.***

Bu gün Xocalı niskilli deyil, bayram əhval-ruhiyyəsindədir. Bəli, xocalılılar şəhərə qayıdırlar. Birinci mərhələdə 20 ailə Xocalıya qayıtdı. Bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüf etməsi heç də təsadüfi deyildi. "Keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur". Bu sözləri mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı şəhərinə köçən sakinlərlə görüşü zamanı dövlətimizin başçısı bildirib. O sakinlərlə ki, illərin yarası qaysaqlanmayıb. O sakinlərlə ki, körpə ikən buradan qarlı-şaxtalı bir gecədə fəryad edərək ana qucağında, yaxud anasını qanı tökülmüş torpaqda qoyaraq məcburən qovulmuşdu. Əlbəttə ki, bu gün biz qalib xalq kimi yaşasaq da ötən illərdə yaşadığımız faciələr tariximizin səhifələrinə həkk olunub və o, tarixi dövr yaddaşımızda qövr edir. Bəşəriyyət tarixinin insanlıq







əleyhinə yönəlmiş ən dəhşətli cinayətlərdən biri olan, Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik zəmində soyqırımı siyasətini sübut edən Xocalı soyqırımından 32 il ötür. Bu illər ərizində bu torpaqlara qayıdacağımız günü gözləyirdik. 1992-ci ilin 26 fevral tarixində erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Xocalı bir gecənin içərisində yerlə-yeksan olundu. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində, Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi.

### "HƏM VƏTƏN MÜHARİBƏSİ, HƏM ANTİTERROR ƏMƏLİYYATI XALQIMIZIN GÜCÜNÜ, İRADƏSİNİ, ƏSGƏR VƏ ZABİTLƏRİMİZİN QƏHRƏMANLIĞINI BÜTÜN DÜNYAYA SÜBUT ETDİ"

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. "Xocalıda, Xankəndidə, o vaxt hələ ki, azad edilməmiş digər şəhər və kəndlərimizdə separatçılar at oynadırdılar. Onlar hesab edirdilər ki, burada separatçılıqla əbədi məşğul olacaqlar. Halbuki bunun heç bir hüquqi, tarixi əsası yox idi. Xocalı qədim Azərbaycan torpağıdır. Mənfur düşmən soyqırımı törədəndən sonra burada qanunsuz məskunlaşma da aparmışdır. Bu da hərbi cinayət sayılır. Xocalının adını da dəyişdirməyə, bir hərbi cinayətkarın adına rəsmiləşdirməyə çalışırdılar. Ancaq hər şeyin vaxtı var və biz qayıtmışıq, həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!" - deyə Prezident bildirib. Azərbaycan tarixi ədaləti bərpa edib və günahsız Xocalı qurbanlarının qisası döyüş meydanında alınıb. Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır. Azərbaycan əzəli torpaqlarına sahibdir.

### QALİB SƏRKƏRDƏNİN VERDİYİ MESAJLAR

Artıq Xocalıda ədalətin təntənəsi yaşanılır, yeni bir dövrün başlanğıcı. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq. Xocalı yenidən qurulur. "Əvvəlkindən də daha gözəl şəhərdir və daha da gözəl olacaq. Bu gün sadəcə olaraq, birinci mərhələdir. Bu gün, əslində, Böyük Qayıdış proqramının Xocalı səhifəsi yazılır. Yaxın gələcəkdə digər xocalılılar da buraya qayıdacaqlar, əminəm ki, böyük həvəslə" - deyə Prezident qeyd edib: "Xocalılılar müxtəlif yerlərdə məskunlaşmışdılar və müstəqillik illərini Xocalıdan ayrı keçirməli oldular. Müstəqilliyin bərpası elan olunandan dörd ay sonra Ermənistan Xocalı soyqırımını törətdi, günahsız insanları qətlə yetirdi, insanlığa qarşı cinayət törətdi. Xocalılılar faktiki olaraq müstəqilliyin bütün illərini başqa-başqa yerlərdə keçirməli oldular, o cümlədən Ağcakənd kəndində. Bildiyiniz kimi, birinci köçkün qəsəbəsi məhz Ağcakənd qəsəbəsində xocalılılar üçün Ulu Öndərin iştirakı ilə salınmışdır".

### "GƏRƏK, İLK NÖVBƏDƏ, ERMƏNİSTAN ÖZÜ BU FACİƏNİ, BU CİNAYƏTİ, HƏRBİ CİNAYƏTİNİ TANISIN"

Bildiyimiz kimi, cari ilin fevralın 26-da Xocalı soyqırımı günü Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuşdu. Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq. Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsində əhəmiyyətlidir. Cənab Prezident bildirib ki, Xocalı soyqırımı abidəsinin, Memorial Kompleksinin yaradılması ilə bağlı uzun illər məsələlər müzakirə edilirdi, hətta "Ana fəryadı" abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı: "Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu Memorial Kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir. Ermənistan özü bunu etiraf etməlidir, özü bizdən üzr istəməlidir. Ancaq bunu etməklə ola bilsin ki, indiki Ermənistan rəhbərliyi - o vəhşilərin, vandalların, qaniçənlərin günahlarını bir qədər yumuş ola bilər. Bunu etməsə, məncə, Ermənistan özü heç vaxt ayağa dura bilməyəcək. Gərək, ilk növbədə, Ermənistan özü bu faciəni, bu cinayəti, hərbi cinayətini tanısın."

### CƏMİ 8 AY ƏRZİNDƏ BƏRPA EDİLMİŞ XOCALIDAYIQ

Əlbəttə ki, bizlərə bu tarixi günləri yaşadan vətənin mərd oğulları, mübariz ruhlu oğullarıdır. "Onların qəhrəmanlığı, fədakarlığı sayəsində biz bu gün buradayıq" - deyən Prezident bildirib ki, onlar sinələrini qabağa verərək düşmənə elə bir sarsıdıcı zərbə endirmişlər ki, əminəm, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək.: "Halbuki Ermənistanda revanşistlər də kifayət qədər çoxdur. Biz son hadisələri də izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik. Bu gün hərbçilər üçün inşa edilmiş evlərlə də tanış oldum. Bütün Qarabağ və Şərqi Zəngəzur çox möhkəm bir istehkam zonası olacaq və burada artıq bu istiqamətdə işlər görülür ki, Azərbaycan xalqı əbədi əmin olsun, bir daha bu faciələr bizim xalqımızın başına gəlməyəcək. Bu gün bax, burada - Xocalıda, - cəmi 8 ay ərzində bərpa edilmiş Xocalıda".

Bu gün Xocalı yenidən qurulur. Xocalı şəhərinin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür.

Ardı Səh. 4







# Böyük Qayıdışın Xocalı səhifəsi

## Prezident İlham Əliyev: "Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik"



Əvvəli Səh. 3

Bütün kommunikasiya xətləri yerin altına salınıb, ilk 50 evə birləşmələr verilib. Şəhər üzrə kommunikasiya işlərinin 90 faizi icra edilib. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Bulvar ilə üzbəüz isə çarşı-bazar qurulur, iaşə obyektləri tikilir.

### İLK MƏRHƏLƏDƏ 12 MİN NƏFƏRLİK ŞƏHƏR PLANLAŞDIRILIR

Xocalı sakinlərindən birinin bildirdiyi kimi, bizim əhali XX əsrin faciəsini yaşayıb, Xocalı faciəsini. Burada olan bütün insanlar o faciədən çıxmış insanlardır. Bütün bunlara baxmayaraq, bu gün onların sevincinin həddi-hüdudu yoxdur. "Kədərliyik ona görə ki, Xocalı faciəsini yaşamışıq, Xocalı faciəsindən çıxmışıq. Xocalıda elə bir ailə yoxdur ki, həmin faciə vaxtı itki verməsin, şəhid verməsin. Yəni, bütün bunlara baxmayaraq, Sizin xarici və daxili siyasətiniz nəticəsində bizim torpaqlarımız azad edildi. Daha sonra keçən ilin sentyabr ayında antiterror əməliyyatı nəticəsində Xocalımız separatçı ermənilərdən təmizləndi və azad edildi. Sizin sayənizdə qısa müddət ərzində Xocalımız belə gözəlləşdi" - deyə şəhər sakini diqqətə çəkib. Artıq Xocalının gələcək inkişafı ilə bağlı Baş planı da hazırlanıb. Baş Plana əsasən, ilk mərhələdə 12 min nəfərlik şəhər planlaşdırılır. Eyni zamanda, ehtiyat üçün də ərazilər saxlanılır.

### XOCALI MÜASİR ŞƏHƏR OLACAQ

Şəhər mühitini canlandıran yeni nəqliyyat qovşağı vacib rol oynayacaq, mobilliyi artıracaq. Bu, həmçinin şəhərdə iqtisadiyyatın, sahibkarlığın inkişafına da xüsusi təkan verəcək. Bütün bunlar dinamik inkişafı təmin edən iqtisadi şaxələndirməyə imkan verəcək. Burada çox zəngin kənd təsərrüfatı torpaqları olduğunu nəzərə alaraq, şəhər daxilində kiçik aqropark yaradılması təklif olunur. Müxtəlif tikinti materialları istehsalı, yüngül sənaye,



qida sənayesi obyektləri yaradılacaq, nəqliyyat və logistika ənənəvi əsas sektor olaraq inkişaf etdiriləcək. Xocalı müasir şəhər olacaq. "Mən dəmir yolu ilə də bağlı göstəriş verdim. Ağdam-Xankəndi dəmir yolunun bərpası, yəni yenidən qurulması layihəsi hazırlanır. Xankəndi dəmir yolu vağzalının layihəsi mənə təqdim edilmişdir. Yəqin ki, o vağzal bir az fərqli yerdə yerləşəcək, daha uyğun. Ona görə də dəmir yolu ilə buradan - Xankəndidən, Xocalıdan istənilən istiqamətə getmək mümkün olacaq. Həm Bakıya, həm qərb istiqamətinə, Gəncəyə. Ona görə də gediş-gəliş rahat olacaq. İndi Ağdam, Əsgəran, Xankəndi yolunu da genişləndiririk. Siz yaxşı bilirsiniz ki, o yol dar idi" - deyən Prezident onu da bildirib ki, indi dördzolaqlı yol olacaq: "Yəqin ki, Ağdam-Bərdə yolunu görmüsünüz. Necə də gözəl olub. Bu tərəfdən də Şuşaya cəmi 20 dəqiqəlik yoldur, oradan Laçına. Laçın-Şuşa yolunda bir neçə tunel, körpü inşa edilir. Yəqin ki, siz o yol ilə çox gedib-gəlmisiniz. Hamısı belə serpantin idi. Bu serpantinləri də düzəldirik, körpülər, tunellər. Şuşadan Laçına maksimum 25 dəqiqəyə getmək mümkün olacaq. Deməli, buradan bütün yaxın qonşu rayonlara da gediş-gəliş çox rahat olacaq. Xankəndidə Qarabağ Universiteti, uşaqlarınız orada oxuyacaqlar. Şuşa da ki, indi dünyanın ən gözəl şəhəridir və olacaq".

Xocalının Baş planını hazırlayarkən ilk növbədə, onun regiondakı mövqeyi də nəzərə alınıb. Bura strateji mövqeyə malikdir. Beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil yolu, hazırda layihələndirilən, tezliklə çəkiləcək dəmir yolu və s. bütün bunlar Xocalının gələcəyini artıq bir qovşaq kimi, nəqliyyat qovşağı və logistika mərkəzi kimi şərtləndirir. Eyni zamanda, strateji əhəmiyyətə malik Ağdam, Xankəndi şəhərlərinin, mədəniyyət paytaxtımız Şuşa şəhərinin çox yaxında yerləşdiyini də nəzərə alaraq, regionla inteqrasiyasına xüsusi önəm verilib. Bu tərəfdə Xocalı şəhərinin tünd qəhvəyi rənglə əvvəl mövcud olmuş sərhədləri göstərilib, 610 hektar təşkil edirdi. Hazırda isə 1300 hektara yaxın ərazi nəzərdən keçirilir.

Göründüyü kimi, cəmi səkkiz ayda belə quruculuq işləri aparılıb. "Mən xüsusi tapşırıq vermişdim, antiterror əməliyyatından dərhal sonra dedim ki, birinci növbədə biz Xocalını bərpa etməliyik" - deyə Prezident bildirib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalıda Sənətkarlar məhəlləsində olublar. Əvvəlcə "AzeRobot Education" robototexnika tədris mərkəzinin Xocalıdakı filialında yaradılan şəraitlə tanış olublar. "AzeRobot Education" artıq üç ilə yaxındır fəaliyyət göstərir. Bu Xocalıdakı doqquzuncu filialıdır. Proqramlaşdırma, mühəndislik və robototexnika. Beş yaşında uşaqlardan tutmuş şagirdlərə və gənclərə IT sahəsini tədris edilir. On yeddi modulu var, yəni, süni intellekt, kibertəhlükəsizlik, proqramlaşma. Xocalıda da artıq bu fəaliyyət başlayıb.

### "BURADA YAŞAMAQ, YARATMAQ HƏR BİR İNSANA XÜSUSİ ZÖVQ VERƏCƏK"

Xocalı şəhərində orta təhsil müəssisəsi və uşaq bağçası da inşa olunub. Məktəbin qarşısında park, onun yanında isə sənətkarlar məhəlləsi salınıb. Həmçinin idman kompleksində tamamlanma işləri görülür. Kompleksdə şahmat, cüdo, güləş, gimnastika, stolüstü tennis, basketbol, minifutbol, badminton ilə məşğul olmaq üçün lazımi şərait yaradılacaq. İnfrastruktur işlərinin yaxın müddətdə tamamlanması nəzərdə tutulur: "Həm abad, gözəl evlər, istirahət zonaları. O qədər gözəl təbiəti var ki, burada yaşamaq, yaratmaq hər bir insana xüsusi zövq verəcək. Siz də buna layiqsiniz. Siz otuz ildən çox müxtəlif yerlərdə yaşamısınız - kimi yataqxanada, kimi uşaq bağçasında, kimi qohumların evində, kimi də qəsəbədə. Bilirsiniz, mən işğal dövründə xocalılılarla dəfələrlə görüşmüşdüm, - Bakıda və digər yerlərdə qəsəbə salınmışdır, - deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax, bu gün də gəldi. Sizi təbrik edirəm", - deyə dövlət başçımız bildirib.

***Zümrüd BAYRAMOVA***

# Prezident İlham Əliyev "CVC Capital Partners" şirkətinin həmtəsisçisi və sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da alternativ investisiyaların idarə edilməsi üzrə Avropanın ən böyük və nüfuzlu investisiya şirkətlərindən biri olan "CVC Capital Partners" şirkətinin həmtəsisçisi və sədri Rolli Van Rappardı qəbul edib. Ölkəmizdə davamlı inkişaf proseslərinin getdiyini vurğulayan Rolli Van Rappard Azərbaycanın bir çox sahədə əldə etdiyi nailiyyətlərin çox təqdirəlayiq olduğunu bildirdi. Qonaq "CVC Capital Partners" şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlıq etməsindən böyük məmnunluq hissi duyduğunu deyərək, gələcəkdə əməkdaşlığın daha da möhkəmlənəcəyinə inamını ifadə etdi.

Prezident İlham Əliyev dünyanın qabaqcıl maliyyə qurumları ilə



əməkdaşlıq edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun "CVC Capital Partners" şirkəti ilə uğurlu tərəfdaşlığını müsbət qiymətləndirərək mövcud münasibətlərin daha da gücləndirilməsi üçün əlverişli mühitin olduğunu bildirdi. Dövlət Neft Fondunun fəaliyyətinin daim genişləndiyini deyən dövlətimizin başçısı qeyri-sabit maliyyə bazarları mühitində də Fondun aktivlərinin artdığını vurğuladı.

Qeyd edək ki, 1981-ci ildə təsis olunmuş "CVC Capital Partners" şirkətinin özəl səhmlər, özəl kredit, infrastruktur və digər fondlarında idarə etdiyi aktivlərin toplam dəyəri 187 milyard avrodur. Dünyanın müxtəlif şəhərlərində 40 ofisi və 850-dən çox əməkdaşı olan şirkətin mərkəzi ofisi Lüksemburqda yerləşir.

# Hədəfə tuş gələn və DAĞILMAQDA OLAN ÜÇLÜK

***Rəsmi İrəvanın etirazçılara qarşı sərt tədbirlərə əl atdığı müşahidə edilməkdədir və görünən odur ki, Ermənistanın mövcud hakimiyyəti artıq rəqibini "zərərsizləşdirməyə", hətta siyasi meydandan da uzaqlaşdırmağa nail olmaqdadır. Qarabağ klanı, kilsə və erməni diasporundan ibarət olan üçlüyün Nikol Paşinyan hakimiyyətinə uduzmaqda olduğu da göz önündədir. Heç bir nəticə əldə edə bilməyən bu üçlüyə qarşı erməni baş nazirin də artıq tamamilə sərt mövqe nümayiş etdirməsi heç də təsadüfi sayıla bilməz, çünki onların Ermənistan hakimiyyətinin uzun müddətdir ki, hədəfində olduğu sirr deyil və məhz Paşinyan hakimiyyətinin hədəfinə tuş gələn həmin üçlük artıq dağılmaqdadır.***



## Rəsmi İrəvanın əl atdığı sərt tədbirlərlə, repressiyalarla qarşı-qarşıya qalanlar heç nəyə nail ola bilmirlər

Ermənistandakı kütləvi etiraz dalğasına qarşı Paşinyan hakimiyyətinin atdığı repressiv addımlar barədə elə həmin ölkə mətbuatında açıq-aşkar şəkildə qeyd edilir və bu barədə məlumatsız olmaq mümkün deyil. Buna baxmayaraq, Qərb, ABŞ indi sadəcə olaraq, ancaq müşahidəçi kimi bütün bunlara tamaşa edir. Elə bil ki, insan azadlığından dəm vuran, repressiyalara məruz qalanları guya müdafiə etdiyini bəyan edən həmin ABŞ, həmin Qərb deyil. Demokratiyanı bayraq edərək, hansısa ölkənin daxili işlərinə qarışmağa, müdaxilə belə etməyə cəhd edənlər nədənsə, Paşinyan hakimiyyətinin apardığı kütləvi həbslərə beynəlxalq hüquq normaları çərçivəsində reaksiya da vermirlər. İkili standartlar prinsipinə həmişə olduğu kimi, yenə də sadiq qalmağa üstünlük verən Qərb, ABŞ yenə də məsələ Ermənistanla bağlı olduqda, dəm vurduqları dəyərləri unudurlar. Belə olan halda da Nikol Paşinyana qarşı çıxanlar heç bir dəstək görə bilmirlər və buna görə də nəticə əldə etmələri mümkün olmur. Dəstəkdən məhrum olan etirazçılar rəsmi İrəvanın əl atdığı sərt tədbirlərlə, repressiyalarla qarşı-qarşıya qaldıqları üçün nəyə isə nail ola da bilmirlər. Əksinə, indi Paşinyan hakimiyyəti rəqibləri üzərində üstünlük qazandığını göstərməkdən belə çəkinmir və hətta nümyişkəranə şəkildə olan repressiyalar belə onu deməyə imkan verir ki, hədəfdə olan qüvvələrin, həmin o üçlüyün tez bir zamanda dağılacağına, bəlkə də artıq dağıldığına Ermənistan hakimiyyəti böyük ümidlər bəsləyir.

## Ermənistan hakimiyyəti sərt tədbirlərlə "kilsə qiyamı" olaraq yaddaqalan etirazları yatırır və bu, rəsmi İrəvanı qane edir

Paşinyan hakimiyyətinin repressiv davranışlarına ABŞ, Qərb susqun reaksiya verməklə, bir növ rəsmi İrəvanı dəstəklədiyini çatdırmağa çalışır. Yəni, açıq şəkildə bildirilir ki, heç də etirazçılar dəstəklənmir, əksinə, dəstək Nikol Paşinyan hakimiyyətinədir. Məsələ burasındadır ki, Qərb Paşinyan hakimiyyətinin qorunmasına çalışmaqla, buna cəhd göstərməklə, Ermənistana fərqli yanaşdığını qətiyyən gizlətmir və hətta bunu təsdiq də edir. Bu da onu deməyə əsas verir ki, Qərb, ABŞ "erməni üçlüyü" dediyimiz həmin o qüvvələrin etiraz aksiyalarının yatırılmasında, ələlxüsus da bu etirazların məhz Nikol Paşinyan hakimiyyəti tərəfindən yatırılmasında maraqlıdır. Təbii ki, bu da Ermənistanın mövcud hakimiyyəti üçün münbit şərait kimi görünür və həmin o mövcud hakimiyyət sərt tədbirlərə də, repressiyalara da bu səbəbdən çox rahatlıqla əl atır.

Sözsüz ki, Ermənistan hakimiyyəti qeyd olunan münbit şəraitdən istifadə edərək, daha doğrusu, Qərbin müşahidəçi mövqeyindən yararlanaraq, sərt tədbirlərlə "kilsə qiyamı" olaraq yadda qalan etirazları asanlıqla yatırır və hətta bu istiqamətdə qazandığı "uğurlar" da rəsmi İrəvanı qane edir. Əvvəla, etiraz aksiyalarına rəhbərlik edən kimi özünü göstərən, amma əslində, bir oyunun aləti, bir marionet kimi tanınan keşiş Baqrat artıq öz ətrafına topladıqlarının sayında kəskin fərqi özü hamıdan yaxşı görür deyə səsi heç də əvvəlki kimi çıxmır. Digər tərəfdən də həmin o keşiş Srbazan ölkə ərazisində və paytaxtda artıq əvvəlki kimi rahat hərəkət belə edə bilmir. Ona görə Rahat hərəkət edə bilmir ki, Ermənistan hüquq-mühafizə orqanları indi əvvəlkindən də daha sərt addımlar atır. Artıq "kilsə qiyamı" kimi tanınan etiraz aksiyasının aparıcı fəalları kütləvi şəkildə həbs olunur, hətta polis zorakılığına məruz qalırlar və bundan sonra Srbazanın nəyə isə ümid etməsi axmaqlıqdan başqa bir şey ola bilməz. Yəni, nəinki onun özünün, hətta ona rəhbərlik edənlərin, onunla eyni mövqedə olanların sıralarının dağılmaqda olduğunu həmin o keşiş Baqrat hamıdan yaxşı bilir. Bilir ki, Qarabağ klanı, kilsə və erməni diasporundan ibarət olan üçlük artıq dağılmaqdadır.

## Paşinyan erməni cəmiyyətini bir çox məsələlərdə inandırmağa nail olub

Paşinyan hakimiyyətinin aqressivləşməsi "kilsə qiyamı" dediyimiz etirazların sürətlə zəifləməsinə gətirib çıxarır. Artıq gözlə də görünür ki, keşiş Baqratın çağırışları ilə kütləvi etiraz aksiyalarına çıxanların sayı kütləvi şəkildə azalıb. İndi həmin o keşiş hamıdan yaxşı bilir ki, Nikol Paşinyan hakimiyyətini devirmək arzusu, niyyəti çoxdan puç olub. Onun özü hamıdan yaxşı bilir ki, Ermənistanın mövcud hakimiyyətini devirmək xülyalarına indi artıq inanan bircə dənə də erməni qala bilməz. Çünki haylar özləri də görürlər ki, Srbazan dedikləri həmin o keşiş artıq "yox" kimi bir şeydir. Deməli, bu baxımdan, rəsmi İrəvanın tezliklə "kilsə qiyamı" deyilən həmin o oyunları, etirazları tamamilə yatıra biləcəyi zərrə qədər də şübhə doğurmur.

İndi artıq Ermənistana məxsus mətbuat səhifələrində qeyd olunur və hətta etiraf belə edilir ki, Paşinyan hakimiyyəti son zamanlar təbliğat baxımından da üstünlüyü ələ keçirə bilib. Rəsmi İrəvan erməni cəmiyyətini bir çox məsələlərdə inandırmağa nail olub və hətta bir sıra məsələlərdə istənilən günahı da məhz qarşı tərəfə "yukləyə" bilir. Məsələn, rəsmi İrəvan "erməni üçlüyü" dediyimiz həmin o Qarabağ klanı, kilsə və erməni diasporunun ortaq qiyamının siyasi məsuliyyətini də əsasən keşişlərin üzərinə yükləməyə cəhd göstərir və belə görünür ki, buna da nail olmaqdadır. Hətta erməni kilsəsini hədəfə alan Paşinyan hakimiyyəti son zamanlar məhz onilliklər boyu uydurulan miflərin dağıldığından erməni kilsəsinin qorxuya düşdüyünü də haylara göstərə bilir. Ümumiyyətlə, erməni kilsəsinin qorxularını erməni cəmiyyətinə çatdıran mövcud ermənistan hakimiyyəti belə görünür ki, həmin kilsəni ələ keçirdiklərindən, sərvətlərindən, torpaqlarından da məhrum edə bilər. Hətta bu barədə eyham da vurulub. Daha dəqiq desək, Paşinyan şəxsən bildirib ki, erməni kilsəsinin nəzarətində olan torpaq əraziləri mütləq dövlətə qaytarılmalıdır və ölkənin faydası naminə istifadə edilməlidir. Bu isə o deməkdir ki, artıq Paşinyan hakimiyyəti erməni kilsəsi ilə son dərəcə sərt şəkildə savaşa başlayıb və qələbəsinə də tamamilə əmindir. Bir halda ki, Nikol Paşinyan erməni kilsəsi ilə yaxın 2-3 ay ərzində haqq-hesab çəkəcəyini açıq mətnlə vurğulayıb, deməli, erməni baş nazir məhz Qarabağ klanı, erməni kilsəsi və erməni diasporunun uydurduğu mifik Ermənistan ideologiyasının mənasızlığını, eləcə də real Ermənistan ideologiyasını ölkə əhalisinin, erməni cəmiyyətinin düşüncəsində formalaşdıra biləcəyinə inanır.

## Yaxın zamanda Qarabağ klanı da, kilsə də, diaspor da ən azından zərərsizləşdiriləcək və çox güman ki, bu "üçlük" dağılacaq

Görünən odur ki, Paşinyan hakimiyyəti ilk növbədə erməni kilsəsini sıradan çıxarıb, təsirsiz dini faktora çevirmək niyyətindədir. Çünki erməni baş nazir çox yaxşı bilir ki, kilsəni belə bir hala saldıqdan sonra ardınca da Qarabağ klanı, yəni, özünə rəqib gördüyü əvvəlki hakimiyyətlə də haqq-hesab çəkə biləcək. Kilsənin öz maraqlarını dövlətin mənafeyindən, maraqlarından üstün tutmasını məhz real Ermənistanın məhvinə apara biləcək böyük bir təhlükə qaynağı kimi göstərməyə çalışan Nikol ilk növbədə erməni kilsəsini zərərsizləşdirmək niyyətindədir. Bunun ardınca da həmin kilsənin ortağı olan Qarabağ klanı ilə birdəfəlik haqq-hesab çəkmək, sonra da erməni diasporunun təzyiq mexanizmlərindən xilas olmaq indi erməni baş naziri ən çox maraqlandıran məsələ kimi görünür.

Paşinyan bilir ki, erməni kilsəsi də, Qarabağ klanı da hakimiyyət uğrunda can atır və onlara şans verilməsinin özü üçün, öz hakimiyyəti üçün son ola biləcəyini də yaxşı başa düşür. Başa düşür ki, Qarabağ klanının əlinə bir balaca şans düşsə, ölkədə hakimiyyəti ələ keçirmək kimi iddialarını gercəkləşdirə bilər. Üstəlik, erməni diasporu "kilsə qiyamı" dediyimiz etiraz aksiyalarını maliyyələşdirməklə, Paşinyan hakimiyyətinin devrilməsi sayəsində mövcud fəaliyyət göstərər və bunun acısını da ilk növbədə elə onun özü və hakimiyyət komandası dadmış olar. Bu baxımdan da Paşinyan hakimiyyəti "kilsə qiyamı"nı yatırmaqda, bununla da "erməni üçlüyü" dediyimiz Qarabağ klanı, erməni kilsəsi və erməni diasporuna üstün gəlməkdə, hələ üstəlik dağıtmaqda da israrlıdır. Deməli, belə çıxır ki, hadisələr belə davam edəcəyi təqdirdə yaxın zamanda Qarabağ klanı da, kilsə də, diaspor da ən azından zərərsizləşdiriləcək və çox güman ki, hələ bu "üçlük" dağılacaq da...

***İnam Hacıyev***

# Azərbaycanlı tələbələr dünyanın ən məşhur universitetlərində

“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”na artıq 330 namizəd müraciət edib. Bunu elm və təhsil naziri Emin Əmrullayev ”Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində keçirilən ”Yaşıl artım gündəliyində təhsil” mövzusunda konfransda söyləyib. Nazir bildirib ki, müraciət edən namizədlərin 96 nəfəri dünyanın top 10 universitetinə qəbul olub. Ümumiyyətlə, ölkəmizdə gənclərin qabaqcıl xarici təhsil proqramlarına cəlb edilməsi mütəmadi və uğurla həyata keçirilir. Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar əsasında reallaşan ”2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın, habelə ”2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın nəticəsində 5000-dən artıq Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa müvəffəq olub.

Dövlətin dəstəyi sayəsində gənclərin dünyanın 32 ölkəsinin 370-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə 200 milyon manat vəsait xərclənib. Prezident İlham Əliyev 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə ”Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”nı təsdiq edib.



Dövlət Proqramı çərçivəsində hər il 400 nəfərədək olmaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması nəzərdə tutulub. Ötən 2 il ərzində 146 bakalavriat, 571 magistratura səviyyəsində olmaqla, 717 nəfər tələbə təqaüd almaq hüququ qazanıb. 2023-2024-cü tədris ilində Proqram çərçivəsində bakalavriat səviyyəsi üzrə 64, magistratura səviyyəsi üzrə 317 nəfər olmaqla ümumilikdə 381 nəfər xaricdə təhsil almaq hüququ qazanıb.

Prezident İlham Əliyevin 2005-ci il avqustun 30-da imzaladığı ”Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında” Sərəncamı, ”Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı”, ”Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı, ”Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi müasir Azərbaycan gəncliyinin dünya standartlarına uyğun təhsil almasına, təcrübə qazanmasına zəmin yaradır.

Ümumiyyətlə, gənclərlə bağlı bütün məsələlər dövlətin prioritet məsələsi olmalıdır. Ona görə də sadaladığımız bu mühüm sənədlərin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaqdır. Dövlətin bir amalı var, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək ən vacib məsələdir. Bu yöndə təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarını öyrənmələrinə şərait yaratmaq kimi vəzifələr də var. Bu gün hər kəsin qəbul etdiyi qaçılmaz bir həqiqət var ki, o da uşaqlarımızın yaşayacağı dövrün bizim yaşadığımız zamandan çox fərqli olacağı gerçəyidir. Bu baxımdan övladlarımızın malik olacaqları bilik, bacarıq və davranışlar əlbəttə ki, bizim bildiklərimizdən çox fərqli olacaq. Onlar aldıqları qabaqcıl təhsil sayəsində yaradıcı, yenilikçi, ixtiraçı bir dövrdə yaşayacaqlar, innovasiyanın bütün mərhələlərini keçəcəklər. Valideyn olaraq bizim borcumuzdur ki, övladımız innovativ gələcəyə öz mədəniyyətinə, adətinə vətəninə bağlı fərd kimi getsin. Bu yolda dövlət də təhsil proqramları ilə öz gənclərinin yanındadırsa, o gələcəyin uğurlu olacağına indidən təminat var deməkdir.

*Lalə Mehralı*

# Qarabağdakı soyqırım cinayətlərinin tanınmasının beynəlxalq əhəmiyyəti

Son illər regional münaqişələrin və tarixi mübahisələrin yaratdığı yaraların sağalması istiqamətində mühüm addımlar atılıb. Ancaq keçmişin acı xatirələri və ədalətsizlikləri ilə üz-üzə gəlmək əsl sülh və barışıq üçün ilkin şərtdir. Bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Qarabağda törətdiyi vəhşilikləri tanımaq və ona görə üzr istəmək üçün mühüm addım atmalı olduğu fikri həm tarixi reallığa, həm də regional sülhə töhfə vermək məqsədi daşıyır. Azərbaycan Prezidenti İlham Əliyev öz ölkəsinin lideri kimi tarixi faktları düzgün tanıtmaq və ədalətin təmin olunmasına çalışmaq məsuliyyətini layiqincə daşıyır. Beləliklə Xocalı soyqırımının tanınması və həlak olanların xatirəsinə ehtiramın göstərilməsi Azərbaycan xalqının haqlı tələblərindən biri olaraq Azərbaycan dövlətinin gündəmində qalmaqdadır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər zaman olduğu kimi bu məsələni gündəmə gətirərək, Xocalı şəhərinə köçən sakinlərlə söhbəti zamanı deyib: ”Xocalı soyqırımı abidəsinin, Memorial Kompleksinin yaradılması ilə bağlı uzun illər məsələlər müzakirə edilirdi, hətta ”Ana fəryadı” abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı. Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu Memorial Kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək”. Prezident İlham Əliyev daha sonra əlavə edib: ”Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir. Ermənistan özü bunu etiraf etməlidir, özü bizdən üzr istəməlidir. Ancaq bunu etməklə ola bilsin ki, indiki Ermənistan rəhbərliyi - o vəhşilərin, vandalların, qaniçənlərin günahlarını bir qədər yumuş ola bilər. Bunu etməsə, məncə, Ermənistan özü heç vaxt ayağa dura bilməyəcək. Gərək, ilk növbədə, Ermənistan özü bu faciəni, bu cinayəti, hərbi cinayətini tanısın”.




Xocalı soyqırımı kimi digər soyqırım cinayətlərinin tanınması təkcə Azərbaycan üçün deyil, həm də regionda ümumi sülh və sabitlik üçün həyati əhəmiyyət kəsb edir. Keçmişin ədalətsizlikləri ilə üzləşmək və soyqırım qurbanlarına ədalətin təmin edilməsi regional münasibətlərin normallaşdırılması və gələcək münaqişələrin qarşısının alınmasında mühüm addımdır. Bu addım Azərbaycan və Ermənistan arasında barışıq və əməkdaşlıq üçün zəmin yaradılmasına töhfə verə bilər. Eyni zamanda Azərbaycan xalqının hüquqlarının müdafiəsi, regionda barışıq və sülhün bərqərar olması baxımından böyük əhəmiyyət kəsb edir. Keçmişin acı xatirələrini yad etmək və gələcək nəsillərə daha dinc bir dünya buraxmaq üçün bu addımı atmaq hər kəs üçün ən yaxşı nəticəni verəcək. Digər tərəfdən Qarabağda yaşanan müharibə cinayətlərinin rəsmi tanınması Azərbaycanın beynəlxalq statusuna da bir neçə istiqamətdə təsir göstərə bilər. Bu təsirlər diplomatik münasibətlərdən tutmuş, beynəlxalq nüfuzumuza və bir sıra hüquqi nəticələrə qədər geniş sahədə müşahidə oluna bilər. Belə ki, bu yolda Azərbaycan tərəfinin üzləşəcəyi siyasi təziqlərlə birgə möhkəmlədəcəyimiz beynəlxalq mövqeyimiz və qətiyyətimiz də müzakirə mövzusudur. Ona görə də soyqırım cinayətlərinin tanınması və nəticələrinin diqqətlə qiymətləndirilməsi Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini formalaşdıran əsas amillərdən biridir.

*Zərdüşt Quluzadə*



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Dil ”qəssabları”

Yazımın başlığını belə seçməklə məncə, tam da düzgün ifadə etmişəm, hələ bir az da yumşaq alınıb. Çünki efirlərdə, sosial şəbəkələrdə, reklam şitlərində, ictimai yerlərdə zəngin, min illərdir yol gələn doğma AZƏRBAYCAN DİLİNİ kökdən salan, dilimizə qarşı əsl soyqırımı törədən dil ”qəssablarına” qarşı daha kəskin mövqe tutmaq lazımdır. Axı ana dili bizim kimliyimizidir, bizim varlığımızdır, bundan o tərəfə yoxdur, əzizlərim! Rəhmətlik Cəlil Məmmədquluzadənin ”Anamın kitabı”nda dilimizin başına gətirilənlərlə bağlı, bir ananın üç övladının timsalında milli dəyərlərimizə qarşı edilənlərlə bağlı bütün yazdıqları 22-ci əsrə getdiyimiz bu günlərdə yenə aktuallığını qoruyub saxlayır. Min təəssüf, elədir ki, var!

Müstəqillik qazandıqdan sonra göbələk kimi artan nəzarətsiz media, onun ardınca da on ildən çoxdur ki, mənəviyyatımıza, sözün əsl mənasında, od vuran sosial şəbəkələr və savadsız, aşağı səviyyəli ”aparıcı” sürüsü ilə dolub-daşan efirlər bu gün Azərbaycan dilinə qarşı səlib yürüşü keçirirlər.

Artıq iş o yerə çatıb ki, ana dilimizi bizə sevdirən, həyata gözlərimizi açdığımız, milli kimliyimizi dərk etdiyimiz orta məktəblərdə də dilimizin şəffaflığını qorumaq, heç olmasa şagirdləri elementar dil qaydaları barədə məlumatlandırmaq işi keçib arxa plana. Əzbərçi ”tədris proqramı” ilə gün keçirən məktəblər, şagirdlərə yaradıcı yanaşmanı Allah bilir neçə illər öncə unudublar.

Bir zamanlar yüksək təhsil göstəriciləri və möhkəm nizam-intizam qaydaları ilə öyündüyümüz məktəblərimiz artıq repetitor işbazlığının əlində əsir-yesir qalıblar. Tam əminəm ki, bu gün Azərbaycan məktəblərinin ”anasını ağladan” repetitor biznesi heç də deyildiyi kimi müəllimlərin maddi ehtiyaclarından irəli gəlmir. Əlbəttə, gələcəyin insan mühəndisi olan müəllimlərin aldıqları məvacib onların normal yaşayışı, standartlara uyğun sosial həyat keçirmələri üçün yetərli deyil. Amma həm də vəziyyət deyildiyi kimi acınacaqlı halda da deyil. Sözsüz ki, müəllim də öz biliyini maddi baxımdan qiymətləndirmək hüququna sahibdir. Yəni, biliyini əlavə məşğələ formasında pula çevirə bilər. Bu, müasir dünya qaydalarında normal yanaşmadır. Amma fəlakət odur ki, biz əsrlər boyu olduğu kimi, bu məsələdə də yenə xaos, ajiotaj yaşayırıq. Müqəddəs müəllimlik vəzifəsi, ana dilini uşaqlara sevdirmək istəyi artıq unudulmuş acı hekayəyə çevrilib gedir...

Faciə odur ki, repetitor xidməti artıq bir ucdan kütləvi hal alıb və sentyabrın 15-də ilk parta arxasında əyləşən 1-ci sinif şagirdi cəmi 4-5 gündən sonra ona a, b, c hərflərini öyrətməli olan müəllimə tərəfindən repetitor qəfəsinə salınır. Burada məqsəd nədir? Məqsəd və fərq ondadır ki, müəllim məktəbdəki tədris proqramı çərçivəsində, dövlətin dərs saatında şagirdlərə öyrətməli olduğunu ödənişli məşğələdə onlara ötürür. Yəni, dövlətin tədris proqramı formal olur, əsas tədris keçir repetitor saatına. Tədrisdəki bu xaos, ilk növbədə, ana dilimizin öyrənilməsinə də böyük zərbə vurur. Təəssüf ki, müəllim adını daşıyan və əsas da gözəllik salonlarından məktəb direktoru qoltuğuna ”adyalan” bir çox direktorlar bunun fərqində deyillər...

Gələk əsas mövzuya. Azərbaycan dilinin qorunması üçün təəssüf ki, heç bir qabaqlayıcı işlərin şahidi olmuruq. Nə ictimai səviyyədə, nə də hüquqi-inzibati formada. Bunun belə olduğuna əmin olmaq üçün elə təkcə Bakı şəhərində elan və reklam şitlərinə, metrodakı maarifləndirici və reklam lövhələrinə nəzər yetirmək kifayət edir. Üstəgəl min təəssüflə qeyd edək ki, hazırda KİV-lərdə, internet resurslarında ehtiyac olmadığı halda əcnəbi sözlərdən istifadəyə yer verilir. Sovet dövründə rus dilinə hədsiz yer verilirdisə, bu gün artıq ingilis dili lazım olmayan şəkildə hər yerdə gözümüzə soxulur. Demək olar ki, paytaxt Bakıdakı əksər mağazaların, xidmət və iaşə obyektlərinin qarşısından asılan reklam lövhələrində Azərbaycan dilinin işlənməsinin məhdudlaşdırıldığının şahidi olduq. Reklamlarda dövlət dilinin işlənməsinə etinasız münasibətə yalnız şəhərin mərkəzi küçələrində deyil, ətraf ərazilərdə də rast gəlmək mümkündür. Mətnlər çox halda ingilis, qismən də rus dillərində tərtib edilib. Azərbaycan dilində olan reklamlar isə azlıq təşkil edir. Hanı bu işlərə nəzarət və cavabdeh olan qurumlar, yoxsa ”yatıblar”? Niyə nəzarət yoxdur, niyə doğma dilimizi qorumuruq, NİYƏ???

Niyə axı öz doğma dilimizə bu dərəcədə etinasız yanaşırıq. Bir çoxları televiziya efirlərindən yeri gəldi-gəlmədi Türkiyə türkcəsindən genbol istifadə edir, sanki belə olmalıymış kimi bir də öyünürlər. Bir sıra kütbeyin, savadsız ”aparıcılar” proqrama çağırdıqları azərbaycanlı müsahiblərinə ”hoca”, ”uzman” və digər türk dilindəki ifadələrlə müraciət edir, sanki doğma dilimizi milyonlarla tamaşaçıya unutdururlar. Bu, sözün əsl mənasında, doğma dili unutdurmaq siyasətidir. Bəli, biz də türk ailəsinin bir qoluyuq, Türkiyədəkilər də bizim üçün çox əzizdirlər, qardaş xalqıq. Amma bizim öz doğma Azərbaycan dilimiz var axı. Axı bu dil bizim milli kimliyimizdir, onu necə bayağılaşdıra bilərik, bu kökə sala bilərik? İnanın doğma dilimizə qarşı bu soyqırımı xalq olaraq bizə çox baha başa gələcək. İllər sonra bunun dəhşətli nəticələrini görəcəyik. Necə ki, ötən əsrlərdə etdiklərimizin acılarını son 30 ildə canımızla, qanımızla ödədik. Torpağı qaytarasan, amma itirilmiş ana dilini və itirilmiş AZƏRBAYCANLI DƏYƏRLƏRİNİ heç vaxt!

# Qərb Gürcüstanda hücuma keçir



*Gürcüstan parlamenti prezident Salome Zurabişvilinin "xarici agentlər haqqında" qanuna veto qoymasını dəf edib. Bu qərarın lehinə 84 deputat səs verib, 76 deputat əleyhinə səs verib. Bununla paralel olaraq, müxalifət ABŞ və Aİ-nin dəstəyi ilə payız seçkilərində qalib gələcəyinə ümid bəslədiyi seçki koalisiyası yaradır. Mayın 28-i səhər saatlarında prezidentin vetosunun aradan qaldırılması məsələsi həll olunmuş kimi görünürdü. Hakim partiyanın nümayəndələri bir-birinin ardınca nəsillərinin təşəkkür edəcəyi bir qərar verəcəklərini bildiriblər. Buna baxmayaraq, deputatlar arasında mübahisə bütün günü çəkdi və heç bir dava olmadı. Müxalifət bütün "ədəb normaları"na riayət edərək hakimiyyəti "faşizmdə" ittiham etdi, parlamentin spikeri Şalva Papuaşvili isə buna cavab olaraq rəqiblərini "vətən xaini" adlandırdı. Və yalnız müzakirənin sonunda müxalifət liderlərindən biri Giorgi Vaşadzenin üstünə su tökdülər, lakin o, elə şövqlə danışdı ki, tezliklə üstündəki su da buxarlandı.*

## Rəsmi Tbilisi ABŞ və Avropanın sanksiyalarına hazırlaşır

Bir gün əvvəl parlamentin hüquq komitəsi üç saat ərzində prezidentin nümayəndəsi Giorgi Msxiladzeni dinləyib və o, deputatları vetonu ləğv etməməyə inandırmağa çalışıb. Xüsusilə, o, "xarici agentlər haqqında" qanun layihəsinin Gürcüstan Konstitusiyasının dörd maddəsini - "birləşmə azadlığı", "şəxsi məkan və kommunikasiya hüququ", "bərabərlik hüququ" və "Avropa və Avro-Atlantikaya inteqrasiya haqqında"pozduğunu deyib. Msxiladzenin çıxışı parlamentarilərdə ona lazım olan təəssürat yaratmayıb, lakin eyni mövzuda mayın 13-də baş tutan və təxminən bir dəqiqə davam edən görüşlə müqayisədə bunu irəliləyiş hesab etmək olar.

Bu arada ABŞ vitse-prezidenti Kamala Harris Zurabişviliyə məktub göndərərək bildirib ki, o və prezident Cozef Bayden Gürcüstanda baş verənləri böyük narahatlıqla izləyirlər. Beləliklə, Harris hesab edir ki, hökumətin təşəbbüsü Tbilisinin Qərb ölkələri ilə münasibətlərinə xələl gətirəcək. "Gürcüstan xalqı açıq şəkildə bəyan edir ki, onlar Avropa İttifaqı və NATO-da gələcək istəyirlər. Onlar qanun layihəsinin gələcəyi təhdid etdiyinə inanırlar və buna görə də buna qəti şəkildə qarşı çıxırlar. Onların belə bir gələcək üçün səy göstərməyə tam haqqı var", - məktubda deyilir.

Öz növbəsində ABŞ Dövlət Departamentinin rəhbəri Entoni Blinken yaxın bir neçə ayın respublikanın Avropaya inteqrasiyası üçün həlledici olacağını bildirib. O, Vaşinqtonun gürcülərin əksəriyyətinin demokratik istəklərini dəstəkləməyə davam edəcəyini və "vətəndaş cəmiyyətinin sıxışdırılmasına və dinc toplaşma azadlığına" cavabdeh olan şəxslər üçün viza məhdudiyyəti siyasətinə başladığını bildirib.

Almaniyanın xarici işlər naziri Annalena B?rbokun dediyi kimi, Gürcüstan hökumətinin həmvətənlərinin Avropa Birliyinə üzv olmaq arzusuna mane olması onu ağrıdır. "Xarici agent haqqında" qanun Avropa Birliyinin dəyərlərinə uyğun gəlmir. Biz Aİ-nin cavabını müzakirə edəcəyik və iyun ayında Xarici Əlaqələr Şurasında qərar qəbul edəcəyik", - Avropa diplomatiyasının rəhbəri Josep Borrell bildirib. NATO Parlament Assambleyası həmçinin Gürcüstan hakimiyyətini ölkədə demokratiyanın inkişafı üçün "geri addım" olacaq mübahisəli qanun layihəsindən dərhal imtina etməyə çağırıb.

Bunun fonunda Gürcüstanın iki yüksək rütbəli məmuru istefa vermək qərarına gəlib: maliyyə nazirinin müavini Mirzə Gelaşvili və baş prokuror İrakli Şotadze. M.Gelaşvili deyib ki, respublikanın gələcəyini ancaq Avropada görür. Şotadze isə sağlamlıq problemləri və xaricdə müalicəyə ehtiyacı olması səbəbindən bu addımı atdığını deyib. Buna baxmayaraq, "Gürcü Arzusu"nun siyasi şurası sanksiya hədəsinin "ölkənin müstəqilliyini və suverenliyini məhdudlaşdırmaq üçün kobud və rüsvayçı cəhd" adlandırdığı mesajını yayıb.

Ekspertlər xəbərdarlıq ediblər ki, Qərb çətin ki, özünü yalnız viza sanksiyaları ilə məhdudlaşdırsın. ABŞ və Avropa İttifaqı Gürcüstan rəhbərliyinə və onların ailə üzvlərinə maliyyə məhdudiyyətləri qoya bilər, həmçinin hökumətin iqtisadi imkanlarını məhdudlaşdırmaq və bununla da bir ərəfədə onun nüfuzunu sarsıtmaq məqsədilə respublikanın investisiya cəlbediciliyi reytinqini aşağı sala bilər. "Sanksiyaların Gürcüstan hakimiyyətinə heç bir təsiri olmaya bilər. Lakin Qərb infrastruktur layihələrinə sərmayə qoymağı dayandırarsa, bu, respublikaya güclü zərbə olacaq", - gürcü politoloq Nika Çitadze vurğulayıb.

"Tbilisinin Avropa İttifaqı və ABŞ ilə münasibətlərinin pisləşməsi istənilən halda investisiya cəlbediciliyinin azalmasına səbəb olacaq. Biz bunu artıq larinin zəifləməsi və London Beynəlxalq Birjasında satılan Gürcüstan şirkətlərinin səhmlərinin dəyərinin aşağı düşməsi timsalında görürük", - Geocase mərkəzinin rəhbəri Viktor Kipiani bildirib.

Milli Statistika Xidmətinin məlumatına görə, 2023-cü ildə ölkəyə birbaşa investisiyaların həcmi 1,59 milyard dollardan çox olub. İlk beşliyə Böyük Britaniya (392 milyon dollar), Hollandiya (360,5 milyon dollar), Türkiyə (168,8 milyon dollar), ABŞ (153,5 milyon dollar) və Rusiya (87,6 milyon dollar).

Bu arada müxalifət oktyabrda keçiriləcək parlament seçkilərində "Gürcü arzusu"nun əsas rəqibinə çevriləcək seçki koalisiyası yaratmaqda davam edir. Xüsusilə, Zurabişvili hakim partiyanın əleyhdarlarını hakimiyyətə gəldikdən sonra Avropa inteqrasiyasına xələl gətirən bütün qanunları ləğv etməyə məcbur edən "Gürcüstan Xartiyası"nı imzalamağa dəvət edib. Onlar həmçinin ölkənin məhkəmə, hüquq-mühafizə və seçki sistemlərini siyasi təsirdən təcrid etmək üçün islahatlar aparmalı olacaqlar. Həmçinin xartiya iştirakçıları yeni hökuməti siyasi partiyaların üzvlərindən deyil, prezident tərəfindən təsdiqlənəcək "peşəkarlığı ilə seçilən insanlardan" formalaşdırmağa söz verirlər. Bütün bunlar başa çatdıqdan sonra parlament növbədənkənar seçkilər keçirəcək.

Artıq Vahid Milli Hərəkat (UNM), Axali, Droa, Girchi More Freedom, Lelo for Georgia, Strategy Agmashenebeli və Citizens partiyalarının nümayəndələri saziş imzalayıblar. Öz növbəsində, Girçi partiyasının lideri Yaqo Xviçia sənədi imzalamaq fikrində olmadığını, lakin bu sənəd üzərində birgə işləməyə hazır olduğunu bildirib. Keçmiş baş nazir Giorgi Qaxariyanın "Gürcüstan üçün Qaxariya" əsərində qeyd edib ki, ümumiyyətlə, xartiyanı bəyənir, lakin onu imzalamaq barədə düşünmək lazımdır. Belə ki, razılaşma ölkədəki demək olar ki, bütün Avropayönlü siyasi qüvvələr tərəfindən dəstəklənib.

"Sorğulara görə, seçicilərin təxminən 30-40%-i kimə səs verəcəkləri barədə hələ qərar verməyib. Çox güman ki, "Gürcü Arzusu" ilə ABŞ və Avropa İttifaqı arasında münaqişə bu insanların əksəriyyətinin müxalifətin xeyrinə seçim etməsinə səbəb olacaq. Lakin çox şey partiyaların seçki kampaniyalarını necə aparmasından asılı olacaq", - Çitadze bildirib.

Gürcüstandakı hadisələri Rusiyanın ictimai-siyasi Teleqram kanallarının müəllifləri də müşahidə ediblər. Gürcüstan Parlamenti gözlənildiyi kimi, prezidentin xarici agentlər haqqında qanun layihəsinə qoyduğu vetosunu ləğv edib. Hər halda demək olar ki, Gürcüstan parlamenti ukraynalı həmkarlarına nisbətən daha çox milli yönümlüdür və öz ölkələrinin maraqlarını və gələcəyini düşünürlər.

***V.VƏLİYEV***

PRIZMA

# "Azadlıq" radiosunun fəaliyyəti "Səhər" TV - nin fəaliyyətindən fərqlənmir

## Ə.Kərimli M.Ə.Rəsulzadənin abidəsi önündə mini aksiya təşkil etməklə özünü və ətrafını rüsvay etdi

Sosial şəbəkələrin nəzarətsiz zona olmasını sübut etməyə və ya dəlillərlə çıxış etməyə ehtiyac yoxdur. "Görünən dağa nə bələdçi" məsəlinə uyğun olaraq sosial şəbəkələrdə cərəyan edən biabırçılıqları görən və bilənləri əlavə sübutlarla yormağa ehtiyac yoxdur. Ən dəhşətlisi və rüsvayçı hal ondan ibarətdir ki, özlərini siyasətçi hesab edib, siyasət meydanında var-gəl edənlər daha çox sosial şəbəkələrin "ulduzu"na çevriliblər. Nə zaman sosial şəbəkələrə nəzər yersən Əli Kərimlinin, Cəmil Həsənlinin, Fuad Qəhrəmanlının, Gültəkin Hacıbəylinin və digərlərinin orada eşələndiklərini görmək olar. Sanki bu məxluqların işləri-gücləri yoxdur. Elə bil ki, bu ünsürlər sosial şəbəkələrin ştatlı əməkdaşlarıdır. Xüsusilə də, xarakter və düşüncə baxımdan əmmaməli mollalardan fərqlənməyən Əli Kərimli gecə-gündüz sosial şəbəkələrdədir. Bu məxluq özünü gah siyasətçi, gah da bloger kimi təqdim etməyə çalışsa da, cəmiyyət onu maraqlı tərəflərin trolu olaraq tanıyır. Sadəcə, Ə.Kərimlinin digər trollardan fərqi ondan ibarətdir ki, xarici maraqlı dairələr birbaşa onunla işləyirlər. Yəni, Ə.Kərimliyə maddi yardımlar göstərir və qarşılığında müəyyən işlər tələb edirlər. Bu əməkdaşlıq çərçivəsində Ə.Kərimli hər vəchlə çalışır ki, ətrafına daha çox trol toplasın. Məram və məqsədlərini anlamayan bir qrup insanın iradə zəifliyindən istifadə edən Ə.Kərimli onları öz tərəfinə çəkə bilir. Düzdür, bir müddət sonra həmin o iradə zəiflər ayılırlar və səhv etdiklərini başa düşüb, əski mövqelərinə qayıdırlar. Lakin bu halda belə Ə.Kərimli müəyyən keçid üçün onların imkanlarından öz xeyirinə istifadə edir. Yəni küçələrə çıxıb hay-küy qaldırır və ya sosial şəbəkələrdə kimisə söymək üçün trol olaraq istifadə edir. Faktlara və baş verən proseslərə istinad etsək, o zaman demək olar ki, diribaşlığı ilə seçilməyə çalışan Ə.Kərimli özlərini müstəqil media subyekti olaraq təqdim etməyə cəhd edən xarici radiostansiyalardan da istifadə edir. Yəni ona "Azadlıq", "Amerikanın səsi", "BBC" və bu kimi digər xarici radio və internet TV -lər də yardımçı olurlar.



### "Azadlıq" radiosu şər yuvasına çevrilir

28 may Müstəqillik Günü münasibəti ilə Ə.Kərimli və ətrafının təşkil etdikləri məzhəkədə "Azadlıq" radiosu canfəşanlığı ilə seçilməyə çalışırdı. Bu üzdəniraq radionun əməkdaşları Ə.Kərimlinin təşkil etdiyi piket-şouda gah iştirakçı, gah təbliğatçı gah da jurnalist kimi özlərini təqdim edib, moizələr söyləyirdilər. Ümumiyyətlə, faktlara əsaslanaraq onu qeyd etmək olar ki, "Azadlıq" radiosunun fəaliyyəti farsmolla rejiminin nəzarəti altında olan "Səhər" TV-nin fəaliyyətindən fərqlənməyir. Əgər "Səhər" TV Azərbaycana qarşı şər və böhtanlar səsləndirməsi ilə seçilməyə çalışırsa, "Azadlıq" radiosu da ölkəmizin beynəlxalq aləmdəki müsbət imicinə kölgə salmaq üçün qarayaxma kampaniyası aparır. Bəzən elə ehtimal etmək olur ki, şər yuvaları hesab olunan "Azadlıq" radiosu və "Səhər" TV eyni mərkəzdən idarə olunurlar. Ancaq özlərinin iddialarına görə hər biri fərli mərkəzlərə bağlıdırlar. Hətta "Azadlıq" radiosu iddia edir ki, onlar müstəqil media qurumudurlar. Halbuki, "Azadlıq" radiosu ABŞ Konqresindən maliyyələşir. "Azadlıq" radiosunun nizamnaməsində qeyd edir ki, Konqres tərəfindən maliyyələşdirilməsinə baxmayaraq, müstəqil KİV qurumudur, informasiya siyasətində azaddır. Mövcud ortada olan faktlar isə sübuta yetirir ki, radio heç də azad deyil, birbaşa ABŞ-ın qaranlıq dairələrinin ruporudur. Radionun Azərbaycana qarşı qərəzli və sifarişli reportajları da faktları təsdiq edir.

### Əli Kərimli şounun "qəhrəmanı" olmağa çalışdı, lakin...

Şeytan yuvası hesab olunan "Azadlıq" radiosunun böyük həvəslə yayımladığı verilişlərindən biri də, yuxarıda qeyd etdiyimiz kimi Ə.Kərimlinin 28 May Müstəqillik Günü münasibəti ilə təşkil etdiyi piket-şou oldu. M.Ə.Rəsulzadənin abidəsi önündə mini aksiya təşkil edən Ə.Kərimli mikrofonu əlinə alıb, ağlına deyil ağzına gələnləri danışdı. Qırmızı yalanlarının sayını o dərəcə artırdı ki, ətrafındakı trolların da sifətlərinin rəngi turp kimi qırmızı rəngə çevrildi. İddia edirdi ki, ölkədə M.Ə.Rəsulzadənin abidəsi qoyulmur, adı əbədiləşdilməyir və digər filan-filanlar. Bu yerdə deyiblər "həyasızın əlinə bel versən, dağıtmadığı arx qalmaz". Görən Ə.Kərimli və ətrafındakı trollar bilmirlərmi, Azərbaycan Prezidenti, Fateh Sərkərdə İlham Əliyev Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb? Sərəncamla Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirəcək. Prezident İlham Əliyevin Sərəncamı ilə M.Ə.Rəsulzadənin fəaliyyəti digər cümhuriyyət iştirakçıları kimi dəyərləndirilir: "Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır".

Əgər Ə.Kərimli və ətrafında olanlar bu barədə məlumatsızlarsa, buyurub, medianı nəzərdən keçirə bilərlər. "M.Ə.Rəsulzadəyə abidə qoyulmur" deyərkən görən, heç xəcalət çəkirmi. Ən azı başını qaldırıb, kimə məxsus abidənin önündə var -gəl etdiyini görə bilmirmi? Ə.Kərimli kimin abidəsinin önündə olduğunu anlamırmı? Təbii ki, hər şeyi yaxşı anlayır, həm də hər şeyi yaxşı görür. Sadəcə hikkə və iddia, şərə və böhtana bulaşması onun gözlərini kor, qulaqlarını kar edib.

***İLHAM ƏLİYEV***

## "Qarşındakı insanı qəbul edə bilirsənsə, münasibət qurmaq lazımdır"

*PSİXOLOQ FİKRİ*

"İnsanların sağlam münasibət qura bilmələri üçün ilk olaraq biri-birlərini anlaması və olduğu kimi qəbul etməsi lazımdır. Bəzən qarşı tərəfi olduğu kimi qəbul etməyi insanlar fərqli anlayır və şərtlər qoyurlar". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova deyib. Psixoloq bildirib ki, biz qarşımızdakı insanın bizim istəyimizə uyğun davranmasını tələb edə bilmərik: "Bu zaman sağlam münasibətdən söhbət gedə bilməz. Əsas məsələ odur ki, iki insan biri-birinin fərqliklərini anlayıb qəbul etsin. Əks təqdirdə biz nə etsək də, qarşı tərəfi dəyişə bilməyəcəyik. Təbii ki, burada genetik faktor, dünyagörüşü və ailələr də böyük rol oynayır. Çünki hər kəs fərqli ailələrdə böyüyür və fərqliliklərin olması da olduqca normaldır. Dediyim kimi, əsas məsələ fərqliliklərə baxmayaraq, qarşındakı insanı anlaya bilməkdir. Qarşındakı insanı qəbul edə bilirsənsə, münasibət qurmaq lazımdır. Bu səbəbdən də insanların bir-birlərini, ailələrini tanımaq olduqca vacibdir.



Eyni zamanda ailə daxilində uşağımızı necə böyüdəcəyimizə də xüsusi diqqət ayırmalıyıq. Çünki uşaq ailədə gördüklərini özünə nümunə götürür. Bizim uşağa olan münasibətimiz onun ətrafa olan münasibətinə də təsir göstərir. Biz övladımızla kobud, aqressiv rəftar edəriksə, o da ətrafa qarşı kobud, aqressiv və tələbkar olur. Buna görə də uşaqlarımıza hər zaman nəvazişlə davranmalıyıq. Həmçinin uşaqlarımıza onların fikirlərini nəzərə aldığımızı da göstərməliyik".

***Səbinə Hüseynli***



MƏTANƏT

## Özü olub, funksiyası olmayan POS-terminallardan danışaq...

Vaxtilə hələ tək-tək Pos-terminallar qoyulanda və maarifləndirmə işləri aparılanda ki, ay insanlar, nağdsız ödənişə keçin, bu sizin, həm də dövlətin xeyrinədir, vergidən yayınma hallarının qarşısını alır, sözün həqiqi mənasında, "Pos-terminal nədir axı?",- deyirdik. Lakin zamanla bu formada ödənişin həqiqətən də çox sərfəli olduğunu, satıcı ilə alıcı arasında aldatma hallarına son qoyulduğunu görüncə, hər kəs Pos-terminalları təqdir etdi və ödəniş üçün onu seçdi. Lakin hazırda bəzi mağaza, klinika, şirniyyat evləri və sair obyektlərdə özü olub, funksiyası olmayan Pos-terminallarla da qarşılaşmaq olur. Düşünürsən ki, bunlara nəzarət yoxdur, yoxsa?..

Gedirsən mağazaya, ödəniş zamanı Pos-terminalla ödəniş edəcəyini deyirsən, həm də onun masanın üzərində dayandığını görürsən, lakin satıcı onda problem olduğunu deyir. Dəfələrdə yolun həmin mağazaya düşür, hər dəfə də eyni cavabı alırsan və məsələ sənin üçün tamamilə aydın olur. Mağazalar var ki, ödəniş zamanı Pos-terminalı soruşanda, xanım, siz bilmirsiniz, biz Pos-terminaldan istifadə etmirik, deyirlər. Sən də, axı xatırlayıram, edirdiniz, hətta mən ödənişi onun vasitəsilə etmişəm də deyəndə, cavab belə olur: yox, siz xatırlamırsınız, bizdə əvvəldən Pos-terminal olmayıb. Bu zaman isə sən yaddaşınla satıcının cavabı qarşısında tərəddüd içərisində qalırsan. Elə şirniyyat evləri var ki, bəli, orada da əvvəlcə Pos-terminal vasitəsilə ödəniş edirdik. Lakin günlərin bir günü yığışdırıldı. Nə üçün?..

Eləcə də bəzi klinikalar və sair obyektlər... Bütün bunları görəndə isə adamın ağlına min bir fikir gəlir. Öz-özünə sual verirsən ki, nə üçün bu satıcı və kassirlər aldatmaqla məşğuldurlar? Məqsədləri nədir, kimlər onların arxasında dayanır. Axı nəzarət olsan yerdə belə halların baş verməsi imkansızdır.

Bir də indi hər kəs pulunu kartda saxlayır. Bəzən elə olur ki, pul qabında bir manat olmur. Belə olan təqdirdə isə vacib olanı ala bilmirsən. Nədir, nədir ki, bu bəylər və xanımlar Pos-terminalı gizlədir, dövləti və onun vətəndaşını aldadır.

Lakin Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli 219 nömrəli qərarına uyğun olaraq POS terminallar quraşdırılacaq obyektlər aşağıdakı kimi müəyyənləşdirilmişdir: dövriyyəsindən və ərazisindən asılı olmayaraq Əlavə Dəyər Vergisi (ƏDV) ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri) (vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyata alındığı tarixdən), avtomobil və mebel satışı üzrə ixtisaslaşmış müəssisələr, idman və sağlamlıq kompleksləri, səhiyyə obyektləri, istirahət və əyləncə obyektləri, mehmanxanalar, şadlıq evləri, yanacaqdoldurma məntəqələri, hava, su, dəmiryol və avtomobil nəqliyyatı vasitələri ilə sərnişindaşımada biletlərin satışını həyata keçirən satış məntəqələri və turizm şirkətləri (təsərrüfat subyektinin (obyektinin) qeydiyyata alındığı tarixdən) və ərazilər üzrə POS-terminalların mərhələlərlə tətbiq edilməsi cədvəlinə uyğun olaraq rüb üzrə orta aylıq dövriyyəsi 2000 (iki min) manatdan artıq olan vergi ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri), hüquqi şəxslərə və fərdi sahibkarlara məxsus minik avtomobili ilə (taksi) sərnişin daşınmasını həyata keçirən nəqliyyat vasitələri, vergilərin və göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənişini qəbul edən dövlət orqanları.

Göründüyü kimi, yuxarıda qeyd olunan meyarlar üzrə fəaliyyət göstərən vergi ödəyicilərinin təsərrüfat subyektlərində (obyektlərində) Pos-terminalların quraşdırılması bir mənalı olaraq məcburi xarakter daşıyır. Bununla belə, qeyd olunan meyarlara cavab verməyən müəssisələrin POS-terminalların quraşdırılmasına qanunvericiliklə məhdudiyyət qoyulmamışdır.

Qoy bilməyənlər də bilsin, bilsin ki, istənilən obyektdə qanun çərçivəsində Pos-terminal tələb etmək haqqımızdır. Bundan boyun qaçıran satıcılara isə çatdırmaq lazımdır ki, haqqında şikayət olunacaq. Bəlkə bundan çəkinə və özü olub, funksiyası olmayan Pos-terminalları işə salarlar.

Vergidən qaçmaq, eyni zamanda vətəndaşı aldatmaq məsuliyyət tələb edir. Bir malın dəyərini üç dəfə artırıb insanlara satanlar bilməlidir ki, heç olmasa, dövlətin müəyyən etdiyi vergidən yayınmağa və insanları hüquqları olan Pos-terminaldan məhrum etməyə ixtiyarları yoxdur. Ümidvaram ki, məsələ tezliklə həllini tapar!

# Ömrün 80 illik xatiratı





Heç ağlıma gəlməzdi ki, düz 33 il əvvəl Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində birlikdə təhsil aldığım əziz tələbə yoldaşın Möhsün Aslanın atası haqqında yazmaq günlərin bir günü nəsibim olacaq. O ata ki, universitetdə müəllimimiz olmasa da, lakin həyatda nəinki bizim, bütün jurnalistlərin müəllimidir. Gözəl, mənalı, şirin qələmi, bu qələmdən süzülən oxunaqlı yazıları və 80 yaşına çatmasına baxmayaraq hələ də sözü kəsərli, hər kəsin sevimlisi olmağı bacaran Qədir Aslan. O, ölkə səviyyəli jurnalist-publisist, yazıçı, ziyalı, bizim hər birimizin, xüsusilə də oğlu Möhsün kimi gəncliyini 90-ci illərdə itirən, ömrün bu gözəl çağını yaşamaq qismətı olmayanların mənəvi Atasıdır...

Azərbaycan Yazıçılar Birliyi tərəfindən yazıçı-publisist, əməkdar jurnalist Qədir Aslanın 80 illik yubileyi münasibətilə dərc olunmuş "Qədir Aslan-80" xatirat kitabının təqdimatına Möhsün tərəfindən dəvət aldığım üçün bu gözəl tədbirdə iştirak etdim. Və oradan Qədir müəllim haqqında maraqlı xatirələri dinləməklə daha məlumatlı olaraq qayıtdım. Təəssüratlarım isə bunlar oldu...

### Qərbi Azərbaycan o saçların bəyazlığında, o üzün, əllərin qırışındadır...

Qədir müəllim 80 yaşı haqlayır bu il. 80 yaşın yaraşığını, müdrikliyini həyatdan gözəl şəkildə alıb, hüsnünə həkk edib. Məgər hər 80 yaşlı insan belə görünür? Xeyr, əsla. Gərək elə yaşayasan ki, o ağ saçları, o qırışların gözəlliyini daşıya biləsən. Bu ağ saçlar bir xalqın yolunda bəyazlaşanda, bu qırışlar öz izini xalqın dərdindən, ələmindən alanda, Qədim müəllimin saçları qədər, üzündəki, illərlə qələm tutan əlindəki qırışlar qədər dəyərli olur.

Hələ Qədir müəllimin keçdiyi həyat yoluna nəzər salarkən bu qırışların "tarixçəsi" də gəlir gözlər önünə. Bu ağ saçlarda, üzündəki qırışlarda, gözlərin avazımış işığında bir yurd həsrətinin də görmək olur. Bəlkə də yurd həsrəti olmasaydı, bu gün Qədir müəllimə heç 80 yaşı da verə bilməzdik.

Qədir müəllim də bütün Qərbi azərbaycanlılar, doğulub boya-başa çatdığı Göyçə mahalının Basarkeçər rayonunun Hüseynquluağalı (sonralar Nərimanlı) kəndinin camaatı kimi qonşuluqdan kənar qonşumuzun Qarabağa iştahasının qurbanı olub. 1988-ci ildə nankor ermənilərin silahı burnunda ata-baba yurdunu tərk etmək məcburiyyətində qalanlardan olub. O vaxt Qədir Aslan 44 yaşında, jurnalist ömrünün ən gözəl çağında, həyatın acısını da, şirinini də, yurddan uzaq düşməyin ölümdən betər olduğunu da bütün mənası ilə dərk etdiyi bir yaşda idi.






Oğuz türklərinin beşiyi olan Göyçə mahalından, Dədə Ələsgər yurdundan didərgin düşmək asan deyildi. Bütün məcburi köçkünlərimiz kimi taleyin qaçqınlığına baş əymək, bu dərdi ürəkdə gəzdirmək asan deyildi. Həm də poeziya, şeiriyyətlə, publisistik düşüncələrlə dolu bir qəlbin bu ağrı-acıya baxışı da ayrı idi, dözümü də... Lakin həyat davam etməli idi. Bu acı həqiqətlər insanını ürəyindən vursa da, onu həyatdan küsdürsə də, bu qədərə Qədir müəllim necə baş əyəydi? Axı o və onun kimilərin qələmi yazmalı, xalqın başına açılan müsibətləri həm tarixin səhifələrinə həkk etməli, həm də çıxış yolu olmalı idi. Bu səbəbdən də elə o müdhiş tarixdən sonra uzun illər Qədir müəllimin qələmi Qərbi Azərbaycan nisgili ilə yazdı. O, həyatına Bakıda davam etsə də, qəlbində bir yurd sevgisi, o yurda qayıtmaq sevdası, arzusu ilə onlarla gözəl yazılar, əsərlər yaratdı.

### Bütün dostlardan fərqli dost: 80-nin 55-i

80 yaşlı Qədir Aslanın tədbirdə də gördüyüm kimi, çox sayda dostları var. O, bu dostları mənəvi dəyərləri, sədaqəti, vəfası, ziyalılığı, ən əsası ilə insanlığı ilə qazanıb. Lakin onun 55 ilik bir dostu var ki, o, Qədir müəllimin kədərində də, sevincində də, ən həssas anlarında da daim yanında olub. Həm təsəllisi, həm sirdaşı, həm güvəndiyi yer olub. Qədir müəllim o dosta ürəyini açıb, o isə dayanıb-durmadan bir təsəlli yeri, ovutma mənbəyi olub. O dost Qədir müəllimin 55 il ən sədaqətli, bir an yanından ayrılmayan dostu-qələmidir. O qələm ki, Qədir müəllimin ürəyindən keçənləri, düşüncələrini yazıb, ürəyini boşaldıb, həm də yazdıqları ilə zaman-zaman onu xalqın sevimlisinə, əsl jurnalistə, yazıları əl-əl gəzən qələm sahibinə çevirib. Sanki bu dost Qədir müəllimi özününküləşdirib, odur ki, 80-nin 55-i olaraq əsl dosta, yol yoldaşına çevrilə bilib.

Qədir müəllimin qaçqınlıqdan əvvəlki jurnalistlik fəaliyyəti barədə keçmiş təhsil naziri Misir Mərdanov yazır: "Xatırlayıram, 70-ci illərin əvvəllərində Basarkeçər rayonunda çıxan "Bolluq uğrunda" və "Sovet Ermənistanı" qəzetlərində Qədir Aslanov adlı bir gəncin çox maraqlı məqalələri, xüsusən də felyeton janrında yazdığı yazılar dillər əzbərinə çevrilmişdi.

Onun bu mətbu orqanlarda çıxan "Hamam əhvalatı", "Sədrlə anbardarın söhbəti", "Aşot bazar açıb" felyetonları dərc ediləndə hamı o haqda danışardı. Onun satirik yazıları çıxanda rayon partiya komitəsinin plenumunda müzakirə olunardı və Qədir Aslanın qələminə tuş gələnlər haqda ciddi ölçü götürülərdi. O dövr jurnalist peşəsinə sahib olmaq çox çətin idi. Bu ideoloji sahə olduğu üçün, ermənilər xüsusən bu sahədə Azərbaycanlı kadrların yetişməsinə imkan vermirdilər".

Sonra... Sonra erməni işğalı, Göyçədən ayrı düşmək, yurd həsrəti, qaçqınlıq, min bir zülmün şahidi olmaq... Qədəri həyatını mübarizəyə çevirən Qədir Aslan Azərbaycanın bütövlüyü uğrunda şəhid olan övladlarımız haqqında ilk kitab yazanlardandır. "Göyçə şəhidləri", "Goranboy qartalları", "Borçalının qəhrəman oğlu", "XX əsrin Koroğlusu", "Səbailin şahin oğulları" və sair

Və özünün də dediyi kimi, Göyçədən gələndə bir sandıq qəzetlə gəldiyi kimi, Bakıdakı fəaliyyəti ilə də bir sandıq qəzet yığıb. İndi qocaman jurnalistin ən böyük arzusu bu iki sandıqla Göyçəyə qayıtmaqdır.

### Növbəti yubileydə Göyçədə görüşək!

Yazıçılar Birliyinin təşkilatçılığı ilə işıq üzü görən Qədir Aslanın 80 illik yubileyinə həsr edilən "Qədir Aslan-80" xatirat kitabının mayın 29-da keçirilən təqdimat mərasimi Azərbaycan Respublikası Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid kitabın ərsəyə gəlməsində əməyi olanların hər birinə təşəkkürünü bildirdi və Qədir Aslana Azərbaycan Mətbuat Şurasının diplomunu təqdim etdi. Yubiley münasibətilə Azərbaycan Yazıçılar Birliyi Katibliyinin məktubu oxundu, Qədir Aslana fəxri üzvlük vəsiqəsi verildi.

Nəfis şəkildə tərtib edilmiş kitaba Qədir Aslanın uşaqlıq illərindən bu günədək olan fotoları, həmçinin ailə və iş fotoları, aldığı təltiflər, onu sevən ziyalıların məqalələri, ürək sözləri və jurnalistin əsər və məqalələrindən parçalar daxil edilib.

Görkəmli jurnalistin haqqında öz ürək sözlərini söyləyənlərin hər biri kitabın 80 illik ömrə, 55 illik fəaliyyətə dəyərli töhfə olduğunu bildirdi və yaradıcı heyətə minnətdarlıq etdilər. Və çıxışların hər birində eyni olan bir arzu da var idi: Qədir Aslanın 85 illik yubileyinin Göyçədə keçirməsi...

Biz də Qədir müəllimi ürəkdən təbrik edir, bu arzulara qoşulur və onun 85 illik yubileyində Göyçədə görüşmək diləyilə, deyirik.

***Mətanət Məmmədova***
***əkdar jurnalist***

# "Nar"ın dəstəyi ilə hazırlanan jestdili.az saytının istifadəçilərinin sayı ikiqat artdı

***Ənənəvi olaraq, sərfəli operator kimi tanınan "Nar" sosial layihələri ilə də cəmiyyətə töhfə verməyə davam edir. Bu layihələr sırasında inklüziv cəmiyyət qurmağa yönələn və beynəlxalq mükafata layiq görülən jestdili.az elektron jest dili lüğəti xüsusi önəm daşıyır.***

"Nar"ın dəstəyi ilə ADA Universitetinin tələbələrinin bu ilin əvvəlində yenilədiyi saytda son üç ayın nəticələrinə əsasən istifadəçi sayı ikiqat artıb. Daha bir statistik göstəricəyə görə isə saytda ən çox axtarılan ifadələr "salam", "ata" və "ana" sözləridir. Sayta marağın artmasının səbəblərindən biri universitetin tələbələrinin təşəbbüsü ilə istifadəçi rahatlığını təmin etmək üçün saytın interfeysinin, dizaynının və axtarış sisteminin təkmilləşdirilməsi və bir çox digər funksiyalarla zənginləşdirilməsidir. Layihənin digər tərəfdaşı olan "Karlara Dəstək" İctimai Birliyinin sədri Kamran Abasov Azərbaycan jest dilini tamamilə pulsuz öyrənməyə imkan verən resursun yalnız eşitmə və nitq məhdudiyyətli şəxslər üçün olmadığını bildirir: "Dörd ildir, fəaliyyət göstərənjestdili.az saytına maraq gündən-günə artmaqdadır. Bu sayt təkcə nitq və eşitmə məhdudiyyətlilər üçün olmadığından hər kəs buradan tam ödənişsiz olaraq faydalana bilər. Hesab edirəm ki, biz bir-birimizi daha yaxşı anlamaqla məhdudiyyətləri aşa və inklüziv cəmiyyət qura bilərik".




Qeyd edək ki, daim təkmilləşdirilən elektron lüğət hazırda 4000 sözün və 500 çox işlənən cümlələrin video izahını təqdim edir. 2023-cü ildə Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosasiyası (IPRA) jestdili.az layihəsini əsas götürərək "Nar"ı ən yaxşı korporativ məsuliyyət nominasiyasında birinci yerə layiq görüb. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



# Motivasiya və effektli işçi yetişdirməyin yolları

***Bir çox müəssisə rəhbərləri müdir-işçi münasibətləri vasitəsilə daha sağlam iş mühiti yaratmaq üçün güc və təsirə malikdirlər. Çünki onlar öz işçilərinə şəxsi nümunə ilə yol göstərə bilərlər. Rəhbər bu cür davranış nümayiş etdirdikdə, işçilərin işə cəlb olunma ehtimalı da daha yüksəkdir. Bəs, rəhbər-işçi münasibəti necə olmalıdır? İşə qəbul necə aparılır? Böyük şirkətlər və kiçik biznes sektorlarında fərqlilik nədir? İşçiyə münasibət necə formalaşır? İşçilərin hüquqi təminatçı kimdir? Hüquqilar pozulduqda müraciətlərə reaksiya varmı?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Rəhbər-işçi münasibətləri üçün iş mədəniyyəti yaradın

Rəhbər işçilərin rifahı üçün qayğı göstərməlidir. Belə bir iş mühiti yaratmaq üçün işçilərə emosional və fiziki dəstək verə biləcək mövcud resurslara çıxış təmin edin. Bu "resursların" nə olduğunu öyrənməyin ən yaxşı yolu söhbətə vaxt ayırmaqdır.

## Bu söhbətlərdə aşağıdakı suallara cavab almağa çalışın:

- İşçilərin ofisdə hiss etdikləri. Onlar xoş-



bəxtdir, yoxsa bədbəxt?

- İş mühitinin müsbət tərəflərini necə yaxşılaşdırmaq olar?

- Ofis daxilində dəyişiklik nə qədər olmalıdır?

## Müşahidə və dinləməklə rəhbər-işçi münasibətlərini yaxşılaşdırın

- Dəyişikliklər dünyada və ondan kənarda daim baş verir. Odur ki, işçilərinizi diqqətlə izləmək və dinləmək üçün vaxt ayırın.

- İstər əsaslı yenidənqurma, istərsə də kiçik dəyişiklik olsun, bu, işçilərin işini poza və iş yerinə mənfi təsir göstərə bilər.

- Heç bir dəyişiklik olmasa belə, vaxtaşırı işçilərinizlə söhbətləşmək və onların necə hiss etdiklərini bilmək yaxşıdır.

## Problemlərin mənbəyinin işlə bağlı olmadığından əmin olun

İşçilərinizi izləyərkən, iş yeri ilə bağlı stress əlamətləri ilə qarşılaşa bilərsiniz. Belə hallarda problemlə üzləşmək lazımdır.

Məsələn, bir işçi tonlarla tapşırıqlara kifayət qədər vaxt ayıra bilmədiyi üçün özünü narahat hiss edirsə, çevik iş qrafiki və ya tapşırıqların yenidən təyin edilməsi barədə düşünə bilərsiniz. Komandanızla vaxtın idarə edilməsi ideyalarını müzakirə edin.

## Münasibətlərin inkişafının dərinliyinə bir məhdudiyyət qoyun

İşçi şəxsi və peşə həyatı arasında balans və fərq saxladığı kimi, siz də münasibətlərinizdə belə bir tarazlıq yaratmalısınız.

## Boş vədlər rəhbər-işçi münasibətlərini məhv edir

Pozitiv olun və işçilərə təşəbbüs göstərməyə, problemlərin həlli yollarını axtarmağa və ya maraqlı layihələr üçün yeni ideyalar təklif etməyə icazə verin.

## Əmək müqaviləsi üzrə işçinin əsas hüquqları hansılardır?



*Əmək müqaviləsi üzrə işçinin aşağıdakı əsas hüquqları vardır:*

a) sərbəst surətdə ixtisasına, sənətinə, peşəsinə uyğun əmək fəaliyyəti növü və iş yeri seçərək əmək müqaviləsi bağlamaq;

b) əmək müqaviləsinin şərtlərini dəyişdirmək və ya onu ləğv etmək üçün işəgötürənə müraciət etmək;

c) iş vaxtında və ya iş vaxtından sonra qazanc əldə etmək məqsədi ilə qanunvericiliklə qadağan edilməyən, habelə əmək müqaviləsi üzrə tərəflərin öhdəliklərinə xələl gətirməyən fəaliyyətlə məşğul olmaq;

ç) həyatının, sağlamlığının və əməyinin mühafizəsini təmin edən əmək şəraitində çalışmaq, habelə belə şəraitin yaradılmasını tələb etmək;

d) qanunvericiliklə müəyyən edilmiş minimum məbləğdən aşağı olmayan əmək haqqı almaq;

e) iş vaxtından artıq vaxtda işə cəlb olunduqda əlavə əmək haqqını almaq və ya onun verilməsini tələb etmək;

ə) əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasına daxil olmayan işləri, xidmətləri yerinə yetirməkdən imtina etmək, belə işləri, xidmətləri icra etdikdə isə müvafiq əlavə əmək haqqının verilməsini tələb etmək;

f) mənzil şəraitinin, ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün işəgötürəndən müvafiq sosial yardımlar almaq;

g) qanunvericiliklə müəyyən olunmuş iş vaxtında çalışmaq;

ğ) müvafiq peşələr (vəzifələr), istehsalatlar üzrə iş yerlərində qanunvericiliklə müəyyən olunmuş qısaldılmış iş vaxtında çalışmaq;

h) qanunvericiliklə müəyyən olunmuş həftələrarası istirahət günlərindən istifadə etmək;

x) hər il bu Məcəllədə nəzərdə tutulmuş minimum müddətdən az olmayan ödənişli əsas məzuniyyətdən və müvafiq hallarda əlavə, sosial, ödənişsiz, təhsil məzuniyyətlərindən istifadə etmək;

ı) peşə hazırlığını artırmaq, yeni ixtisasa yiyələnmək və ixtisasını artırmaq;

i) əmək funksiyasının yerinə yetirilməsi zamanı əmlakına və səhhətinə dəyən ziyanın ödənilməsini tələb etmək;

j) işəgötürən tərəfindən qanunvericiliklə müəyyən olunmuş qaydada məcburi sosial sığorta və istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunmaq, habelə hər hansı başqa növ sığorta qaydalarından istifadə etmək;

k) qanunvericiliklə müəyyən olunmuş qaydada həmkarlar ittifaqlarının, ictimai birliklərin üzvü olmaq, habelə bu təşkilatların və ya əmək kollektivinin keçirdiyi tətillərdə, mitinqlərdə, toplantılarda və qanunvericiliklə qadağan olunmayan digər kütləvi tədbirlərdə iştirak etmək;

q) əmək hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək və hüquqi müdafiə olunmaq;

l) sosial müdafiə üzrə müavinətlərdən və güzəştlərdən, sosial sığorta hüququndan istifadə etmək;

m) işsizliyə görə qanunvericiliklə müəyyən olunmuş dövlət təminatını almaq;

n) iş yeri, vəzifəsi (peşəsi), aylıq əmək haqqı və əmək münasibətləri ilə bağlı digər məlumatlar barədə işəgötürəndən müvafiq arayışlar almaq;

o) elektron informasiya sistemindən onunla bağlı qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını, habelə iş yerindən elektron qaydada arayışı real vaxt rejimində əldə etmək.



## Əmək müqaviləsi üzrə işçinin hansı əsas vəzifələri var?

a) əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını vicdanla yerinə yetirmək;

b) əmək intizamına və müəssisədaxili intizam qaydalarına əməl etmək;

c) əməyin təhlükəsizliyi normalarına əməl etmək;

ç) işəgötürənə vurduğu maddi ziyana görə məsuliyyət daşımaq;

d) dövlət sirrini, habelə işəgötürənin kommersiya sirrini müəyyən olunmuş qaydada və şərtlərlə gizli saxlamaq;

e) iş yoldaşlarının əmək hüquqlarını və qanuni mənafelərini pozmamaq;

ə) fərdi, kollektiv əmək mübahisələri üzrə məhkəmə qərarlarını (qətnamələrini) yerinə yetirmək;

f) əmək qanunvericiliyinin tələblərinə əməl etmək.

*Özəl sektora işə qəbul necə aparılır? Böyük şirkətlər və kiçik biznes sektorlarında fərqlilik nədir?*

## Özəl sektor

Özəl sektorda işləməyin müəyyən üstünlükləri və mənfi cəhətləri var. Bu sektorun ən böyük çatışmazlıqları daim yüksək göstəricilər nümayiş etdirmək zərurəti, həmkarlar arasında rəqabət, iş zəmanətinin olmaması, işdən çıxarılma proseslərinin asanlığı, iş vaxtının qeyri-müəyyənliyi və əmək haqqı cədvəllərinin uyğunsuzluğudur.

ARAŞDIRMA

Ardı Səh. 11

Əvvəli Səh. 10

Əgər övladlarınız üçün peşə seçimi etmək vaxtı yaxınlaşırsa, sizin də narahat olmanız normaldır. Bu mühüm qərar mərhələsində uşaqlarınızı istiqamətləndirmək və onların gələcəyinə işıq salmaq üçün düzgün təlimat verməlisiniz. Övladlarınızın xarakterini nəzərə alaraq onlara izah etməlisiniz ki, dövlət sektorunda, yoxsa özəl sektorda işləmək daha yaxşıdır. Övladlarınızın qərarlarına birbaşa müdaxilə etmək əvəzinə, dövlət və özəl sektorun üstünlüklərini və mənfi cəhətlərini onlara izah edərək seçimi onlara buraxmalısınız. Beləliklə, nəzarət sizdə olsa da, onlara verdiyiniz dəstəyi hiss etdirəcəksiniz.

## Övladlarınızın karyera gözləntilərini və xarakterlərini nəzərə alın

Övladlarınızı karyera seçimlərində doğru istiqamətləndirmək istəyirsinizsə, uşaqlarınızın xarakterlərini, gözləntilərini, məzun olduqları və ya oxuyacaqları şöbələri, işləmək əzmlərini, mübarizəni sevib sevmədiklərini nəzərə almalısınız.

Uşaqlarınızı ən yaxşı tanıyan insanlar olaraq dövlət və özəl sektorun bütün müsbət və mənfi cəhətlərini onlara çatdırmalısınız. Bu arada siz övladlarınıza konkret reallığı təqdim etməli, onların gələcəyi ilə bağlı öz fikirlərini çatdırarkən öz fikirlərini sırıyaraq onlardan seçim hüququnu əlindən almamalısınız.

## Dövlət sektoru

Dövlət sektorunda işləməyin üstünlükləri kifayət qədər qənaətbəxşdir. İqtisadi böhran dövrlərində işdən çıxarılma ilə bağlı narahatlığın olmaması, maaşların müntəzəm ödənilməsi, iş saatlarının və məzuniyyətlərin nizamlı şəkildə həyata keçirilməsi, qabaqcıl sosial hüquq və imkanlar minlərlə gəncin dövlət müəssisələrində işləmək istəyinə səbəb olur.

Dövlət sektorunda işləməyin mənfi cəhətləri kimi şərh edilən tərəfləri də var. Dövlət qurumlarında aparılan yoxlamalar, vəzifə yüksəlişinin çətinliyi, iş şəraitini formalaşdıran qanunvericilik və maaşlarda sabitlik dövlət işçilərinin ən çox şikayət etdiyi məsələlər sırasına daxil edilə bilər.

**Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı ekspert Akif Nəsirli:** "Özəl sektorda işə qəbul bir çox hallarda işçinin qabiliyyətindən asılı olmayaraq yəni, qohumbazlıq, rüşvət, hədiyyə kimi səpkidə aparılır. Amma əksər özəl sektorlarda işçilər qabiliyyətinə görə seçilib. Yəni bir neçə işçi müraciət edirsə onları yoxlayırlar, sual-cavab aparırlar, hətta müəyyən müddət işləməyə də icazə verirlər. Sınaq müddətində kim özünü daha yaxşı göstərsə həmin işçi də işə qəbul edilir.



Amma məsələ burasındadır ki, Azərbaycanda özəl sektorun inkişafı bir qədər zəif olduğundan bu sektorda əmək bazarı tam formalaşmayıb. Ona görə də işçilərə tələbdən daha az təkliflər var. İş təklifi az olduğundan işçiləri özəl sektor seçməli olur. Yəni, işçilər subyektləri seçmir. Çünki subyektlər işçiləri seçir. Özəl sektor daha geniş inkişaf etsə, şaxələnsə, onda vətəndaşlarımız şirkətləri seçərdi. Yəni, əmək bazarında işçiyə tələbat təklif olunan işçi qüvvəsindən daha çox olardı. Çox təəsüf ki bu belə deyil.

# Motivasiya və effektli işçi yetişdirməyin yolları



Böyük özəl sektorlarda sözsüz ki müstəqil sahibkarlıqdan söhbət gedir. Hər halda Azərbaycanda biznes strukturlarının müstəqilliyi məhduddur. Böyük şirkətlərdə bu qayda və qanunlara daha həssas yanaşırlar. Çünki onların üzərində nəzarət var. Yəni, sosial şəbəkələr var və hal-hazırda vətəndaşların şikayət etmək, danışmaq imkanları genişdir. Ona görə də həmin şirkətlər dilə-dişə düşməmək üçün onların bu qeyri-qanuni hərəkətlərindən şikayət edilib reputasiyasını aşağı salmasına daha çox qaydalara əməl edir, işçiləri daha normal şəkildə əmək müqaviləsinə uyğun olaraq işə qəbul edirlər.

Kiçik biznes strukturlarında isə 2-3 işçi olur. Bu işçiləri də bu işi quran sahibkar özü seçir, çox vaxt tanışlıqla seçir, qohumlardan qabiliyyətli olan adamları seçir. Yəni orada bir qədər işə qəbul prosesi primitiv şəkildə qanunları nəzərə almadan edilir. Çünki kiçik biznes çox vaxt vakansiyalar da elan eləmir. Özləri nə vaxt lazım olanda bilirlər ki, filan işi 5 gündən sonra işi tərk edib gedəcək, onun yerinə işçi tapırlar.

Birincisi işçilərin hüquqlarının təminatçısı rolunda dövlət çıxış etməlidir. Yəni dövlət tələblər qoymalıdır. Əmək Məcəlləsi var ki, əsasən işçilərin hüquqları Əmək Məcəlləsinə uyğun olaraq tənzimlənir. Kollektiv böyükdürsə, tutaq ki 50-40-20 nəfər işçi varsa onlar işə qəbul olunandan və işçi ilə əmək müqaviləsi bağladıqdan sonra yaxşı olar ki bunlar kollektiv əmək müqavilələri də bağlasınlar. Bu kollektiv əmək müqavilələrinin bağlanması işçi kollektivinin hüquqlarının müdafiəsinin bir metodudur.

Bundan əlavə əməkçilərin, zəhmətkeşlərin hüquqlarının müdafiəsi üçün həmkarlar ittifaqı olur. Dünyada belədir. Bu Həmkarlar İttifaqı Azərbaycanda da var. Amma çox təəssüflər olsun ki, Azərbaycandakı həmkarlar ittifaqları əksər hallarda işçinin hüquqlarını müdafiə etmək əvəzinə sahibkarın hüquqlarını müdafiə etməklə məşğuldur. Yəni Azərbaycanda həmkarlar ittifaqları formal xarakterli bir təşkilatdır. Əslində bu təşkilatı elə işçi kollektivləri özləri yaratmalıdır. Alternativ həmkarlar təşkilatları olmalıdır. Onlar həmkarlar ittifaqında üzvlüyə dayanırlar. Bunu da kollektiv həll edir və kollektiv birlikdə adətən həmkarlar təşkilatlarını seçir. Amma Avropa ölkələrində artıq indi bir kollektivdə bir neçə həmkarlar təşkilatının üzvü olur. Tutaq ki 20 nəfər işçi var. 5 nəfər bir həmkarlar təşkilatının üzvüdür, 5 nəfər başqa bir həmkarlar təşkilatının üzvüdür, 10 nəfər isə 3-cü bir həmkarlar təşkilatının üzvüdür. Bu hallar Avropada var. Çox təəssüflər olsun ki Azərbaycanda bir Həmkarlar İttifaqı Konfederasiyası var. Azərbaycan əməkçisi həmin həmkarlar ittifaqının üzvü olmağa məhkumdur. Alternativ seçimi yoxdur. Ona görə də hal-hazırda həmkarlar ittifaqının işçi hüquqlarını müdafiə etmək qabiliyyəti çox aşağıdır. Hətta sovetlər dönəmində olan həmkarlar ittifaqı indiki Həmkarlar İttifaqı Konfederasiyasından daha səmərəli işləyirdi.

Bununla yanaşı, insan hüquqlarına dair qanunlarda əmək hüquqlarının müdafiəsi var. Həmin qanunlara uyğun olaraq vətəndaşların hüquqları qorunur. Amma əsas faktor birincisi azad sahibkarlığın geniş inkişaf etməsidir, əmək bazarında zəngin iş yerinin təmin edilməsidir və işçilərin öz hüquqlarından istifadə etməsidir. Yəni hüquqlar var təsdiq edilib. Amma biz o hüquqlardan yararlanmırıqsa, praktikada onu tətbiq etmiriksə artıq bu hüquq özü də öz funksiyasını itirir. İşçilər bu hüquqlardan istifadə etməlidir. Hüquqlardan istifadə üçün də hüquqlardan istifadəni stimullaşdıran yeganə amil əmək bazarının inkişaf etdirilməsidir. Əmək bazarının inkişaf etdirilməsi işçiyə nə verir? İşçi işini itirmək qorxusu olmur, fikirləşir ki, buna bərabər, bəlkə də bundan bir az yuxarı ya aşağı başqa iş tapacaq. Amma Azərbaycanda çox təəsüf ki, belə deyil. İşçi düşünür ki, o yeni bir iş yeri tapa bilməyəcək. Ölkədə əmək bazarı normal inkişaf səviyyəsinə çatmayıb. Sahibkarlığın inkişafı normal qaydada deyil. Bu məsələlər hamısı bir-birinə çox qarışıb deyə əmək bazarının zəif inkişafı, geridə qalması bütün o məsələləri pozur.

Hüquqları pozulmuş işçilərin şikayətlərinə çox nadir hallarda reaksiya var. Reaksiya bəzən həmkarlar ittifaqlarının maraqlarına uyğun gəldikdə verilir. Digər tərəfdən əgər işçi öz problemlərini mediaya açıb danışırsa, (bu nadir hallarda olur) onun məhkəmə perspektivi olursa bu hallarda o hüquqların müdafiəsi üçün imkanlar yaranır. Amma Azərbaycanda iş yerlərinin məhdud olması səbəbindən işçi köhnə işinə görə nə mediaya çıxmır, nə də məhkəməyə müraciət etmir. Yəni hüquqlarını müdafiə etməkdə maraqlı olmur. Bu da ölkədə real şəraitlə bağlı olan məsələlərdir".

**Vətəndaşların Əmək Hüquqları Liqasının sədri, hüquq müdafiəçisi Sahib Məmmədov:** "Əmək Məcəlləsi ilə tənzimlənən sahələrdə dövlət və özəl sektor olmasından asılı olmayaraq, qanunvericilik eyni dərəcədə şamil olunur. Əməkhaqqı da aylıq minimum 345 AZN-dan aşağı ola bilməz. Yuxarı hədd isə müəyyən olunmayıb. Dövlət sektorunda müəyyən olsa da, özəl sektor bunu özü müəyyənləşdirir.



İşə qəbul qaydaları ilə bağlı isə əmək qanunvericiliyində ümumi prinsiplər var. İşçi ilk dəfə işə daxil olursa, yalnız şəxsiyyət vəsiqəsini və əgər ixtisasını bildirən sənəd varsa, onu təqdim edir. Bir də tibbi yoxlamadan keçmək zərurəti olan iş yerlərində sağlamlıq kağızını təqdim edir. Təkrar işə gedirsə və əmək kitabçası varsa, bu tələb olunur.

## İşə qəbul necə aparılır? Böyük şirkətlər və kiçik biznes sektorlarında fərqlilik nədir?

Ümumi prinsipial fərq yoxdur. Amma ayrı-ayrı biznes sahələri işə qəbul qaydaları, müsahibə və imtahanlar təşkil edə bilərlər ki, bu da qadağan deyil. Amma bu hüququn ümumi prinsiplərinə zidd olmamalıdır.

Böyük və kiçik müəssisələrin də fərqi var. Kiçik müəssisə hüquqi və fiziki şəxs ola bilər. Bunların fərqli xüsusiyyətləri var. Amma əmək münasibətlərinin tənzimlənməsində heç bir fərq yoxdur. Əmək müqaviləsi bağlanmalı, elektron informasiya sistemində qeydiyyatdan keçirilməli və minimum əməkhaqqından aşağı məvacib vermək olmaz, iş saatı 8 saatdan çox ola bilməz, iş saatından əlavə iş çıxdıqda ikiqat ödəniş tətbiq olunmalıdır".

## İş mühitində ideal rəhbər necə olmalıdır?

- Yaxşı rəhbərin hadisələrə və insanlara qarşı ədalətli və obyektiv olması vacibdir. Tərəf tutmaq fərdi və komanda motivasiyasına mənfi təsir göstərir.
- Komanda daxilindəki həmkarları üçün aydın iş təsvirləri və əmək haqqı meyarları olmalıdır.
- Həm də performansın idarə edilməsində ədalətli olmalıdır. Komanda yoldaşlarına təlim, avadanlıq və təcrübə ilə dəstək olmağı bacarmalıdır.
- Problem yönümlü deyil, həll yönümlü olmalı və komanda yoldaşlarına səlahiyyət, məsuliyyət həvalə etməyi bacarmalıdır.
- Emosional intellektə malik olmalıdır. Duyğularını idarə etməyi, dinləməyi və empati qurmağı bacarmalıdır.
- Situasiyaya uyğun hərəkət etməyi bacarmalıdır.
- Stres və qəzəbi idarə etməlidir. Yaşanan məsələləri və hadisələri fərdiləşdirməməlidir.
- Vaxtı yaxşı idarə etməyi bacarmalı və komanda yoldaşları ilə paylaşılan son tarixlərə əməl etməlidir.
- Tənqidə və şikayətlərə açıq olmalıdır.
- Çətinliklərin öhdəsindən gəlməyi bacarmalı və vəziyyətlər qarşısında qərarlar qəbul edərək icraçı olmalıdır.
- Böhranı ən çətin şərtlər altında idarə edə bilməlidir.
- Komanda yoldaşları ilə peşəkar şəkildə ünsiyyət qurmağı bacarmalıdır.
- Yaxşı idarəçi qiymətləndirməyi və təşəkkür etməyi bacarmalıdır.

*Ayşən Vəli*

# İranla Fransanın uran savaşı



**_Fransa İranın Nigerdə urana çıxış əldə etmək iddiası ilə bağlı vəziyyəti xüsusi sayıqlıqla izləyir. Bu barədə Fransanın diplomatik mənbəsi məlumat verib. Beşinci Respublikanın ən böyük nüvə şirkəti Orano, 2023-cü ildəki hərbi çevrilişdən sonra Parisin Niamey ilə ortaq dil tapa bilməməsinə baxmayaraq, Saheliya ölkəsindəki tarlalarda hələ də məhdud fəaliyyət göstərir. Tehran pilotsuz təyyarələr və raketlər qarşılığında yerli hakimiyyət orqanlarından 300 ton uran konsentratı almağa cəhd etməkdə şübhəli bilinir._**

Fransanın diplomatik mənbəsinin verdiyi məlumata görə, Paris Niger uranının İrana satışı ilə bağlı danışıqların davam etdiyi iddia edilən xəbərləri nəzərə alaraq, "biz Atom Enerjisi üzrə Beynəlxalq Agentlik qarşısında həm zəmanətlər, həm də bəyannamələr üzrə müvafiq öhdəliklərə əməl olunmasını və BMT Təhlükəsizlik Şurasının 2231 saylı qətnaməsinə əməl olunmasını təmin etmək üçün bu məsələni xüsusi diqqətlə izləyirik", - qeyd edib.

İranın Nigerə nüfuz etməsi ilə bağlı müzakirələrə ilkin təkan "The Wall Street Journal" nəşri olub və mart ayında mənbələrə istinadən ABŞ-ın hakim Vətənin Qurtuluşu Milli Şurasına (NSRS) İran tərəfi ilə müqavilə hazırlamaq şübhələrinə görə təzyiq göstərməyə çalışdığını yazıb. Nəşrin yazdığına görə, Vaşinqton Parisdən fərqli olaraq uzun müddətdir ki, çevik olmağa və üsyançılarla dialoq qurmağa çalışsa da, hərbi sahədə ABŞ-Nigeriya razılaşmasının denonsasiyası da bu olub.










Bu fərqlərin miqyasını Nigerin Baş naziri Ali Mahamane Lamine Zein açıqlayıb. May ayında o, The Washington Post qəzetinə deyib ki, Vaşinqton və Niamey arasında fikir ayrılığı birincinin öz xarici siyasət tələblərini Afrika ölkəsinə tətbiq etməyə çalışması ilə bağlıdır. Fransanın təhlükəsizlik məsələlərini işıqlandıran "Africa Intelligence" portalının məlumatına görə, Tehran və Niamey 2023-cü ilin sonundan danışıqlar aparır. Bu məlumata görə, İran tərəfi Arlit şəhəri yaxınlığındakı yataqdan nüvə yanacağının hazırlanmasında istifadə oluna bilən uran konsentratı olan 300 tona yaxın sarı tort əldə etməyə çalışır. Bunun müqabilində NSSR nümayəndələrinə döyüş pilotsuz təyyarələri və yer-hava raketlərinin tədarükü vəd edildiyi iddia edilir. Proqnozlaşdırılan müqavilənin ümumi həcmi 56 milyon dollar həcmində qiymətləndirilir.

Mümkündür ki, sövdələşmənin iqtisadi komponenti də ola bilər. 2024-cü ilin yanvarında mayın 20-dən İran prezidentinin səlahiyyətlərini icra edən Məhəmməd Moxber qeyd edib ki, ölkəsi sanksiyalardan yayınma təcrübəsini Nigerlə bölüşməyə hazırdır. 2023-cü ilin iyul ayının sonlarında baş vermiş çevriliş səbəbindən Niamey Qərb ölkələri və Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi (ECOWAS) kimi regional platformalar tərəfindən blokada ilə təhdid edildi, lakin sonradan sanksiyalar qismən yüngülləşdirildi.

Müharibə Araşdırmaları İnstitutu (ABŞ) qeyd edir ki, 300 ton sarı keks əhəmiyyətli miqdarda urandır və bu, 2019-cu ildə İranda yerli istehsal səviyyəsinə bərabərdir. Amerika tədqiqat mərkəzi İranın Niger uranına marağının əvvəllər az qiymətləndirilməsinin səbəbinin son illərdə İslam Respublikasında yerli istehsalın artması olduğunu irəli sürür.

Fransa üçün birbaşa təhlükə, nüvə sənayesinin flaqmanı olan Orano şirkətinin hələ də Nigerdə mövcudluğunu qoruyub saxlaması və Arlit sahəsinin onun məsuliyyət sahəsidir. Zavodun direktoru Nikolas Mas fevral ayında keçirdiyi mətbuat konfransında Orano'nun Nigerdə "azaldılmış səviyyədə" fəaliyyətini davam etdirdiyini təsdiqləyib. Onun sözlərinə görə, şirkətin vəzifələri hazırda "reagentlərin tədarükü, həmçinin uranın ixracı yollarının tapılması" ilə bağlıdır.

Mas istisna etməyib ki, Orano müəyyən mərhələdə "Nigerdə istehsalı daha davamlı templə bərpa edəcək" və hərbi çevrilişdən əvvəl olduğu kimi "əsasən eyni şeyi" edəcək. Diplomatik mənbələrdən verilən məlumata görə, Beşinci Respublika təchizatların etibarlılığını təmin etmək üçün heç bir şirkətdən və ya ölkədən asılı deyil. Nigeriya uranı Fransanın hər il idxal etdiyi uranın yalnız kiçik bir hissəsini təşkil edir. Fransaya tədarük çoxşaxəlidir.

ABŞ kəşfiyyatına yaxın olan "Stratfor" analitik mərkəzi qeyd edib ki, hətta Fransa mövcud Niger hakimiyyətinin ona yerli urana çıxışı təmin etməkdən imtinası ilə üzləşsə belə, o, "uranın tədarükünü diversifikasiya etmək üçün uzunmüddətli səyləri gücləndirə bilər. Kanada və Qazaxıstanı cəlb etmək", habelə "Özbəkistan və Monqolustanda yeni mədən layihələrinin həyata keçirilməsini" təşviq etmək. Bu isə hələlik perspektivdə olanlardır. Həmin ölkələrlə danışıqlar olsa da təminat yollarının olmaması Parisi çıxılmaz duruma düşürüb.

Bununla belə, Oranonun aktivlərinin Nigerdən çıxarılması Parisin keçmiş Afrika müstəmləkələri ilə münasibətlərini pozmasının ən son parlaq simvolu olardı. Beşinci Respublika 2023-cü ilin sonunda öz hərbi kontingentinin qalıqlarını Nigerdən çıxardıqdan sonra, Mali və Burkina Fasoda olduğu kimi təsir rıçaqlarını itirib. Beş ölkə onun hərbi mövcudluğunun nisbətən sabit nöqtəsidir: Seneqal, Qabon, Kot-d'İvuar, Cibuti və Çad. Lakin orada da işçilərin ixtisarı baş verə bilər: Prezident Emmanuel Makron Qabon, Seneqal və Kot-d'İvuardakı qarnizonun optimallaşdırılmasının vacibliyinə işarə edib.

Fransa hakimiyyəti, prezidentin Afrika məsələləri üzrə köməkçisi Jan-Mari Bokelin sözləri ilə, müdafiə sahəsində Afrika paytaxtları ilə qarşılıqlı əlaqə modelinin yüksək keyfiyyətli və düşünülmüş təftişə ehtiyacı olduğunu başa düşür. Lakin Fransanın hər hansı bir adaptiv və funksional strategiya təklif etdiyinə dair heç bir əlamət yoxdur.

Təbii ki, Saheldəki əməliyyat zonasını daraltdıqdan sonra Fransa tərəfi diqqətini hələ də min nəfərlik hərbi kontingenti olan nisbətən sabit Çada yönəldə bilər. Bununla belə, Njamenanın hərbi çevrilişlər virusuna qarşı toxunulmazlığını çox qiymətləndirmək olar: bir neçə ildir ki, keçid dövrünün lideri Mahamat İdriss Deby Itno mayın 6-da keçirilən seçkilərdə qalib gələrək özünü legitimləşdirməyi bacarıb. Stratforun ordu elitasında potensial üsyan amili hesab etdiyi kimi.

İrana gəlincə, onun Nigerlə təklif etdiyi sazişin parametrləri onun Afrikada diplomatiyasını hansı modeldə inkişaf etdirmək niyyətində olduğuna şübhə yeri qoymur. Türkiyə artıq bu arenada "silah müqabilində üstünlüklər" məntiqində təmaslar tətbiq edir. Bir tərəfdən, bu cür fəaliyyət Afrikanın alternativ xarici tərəfdaşlara artan tələbatını əks etdirir, lakin digər tərəfdən, İran kimi Yaxın Şərq güclərinin ABŞ-ı və Fransanı günahlandırmağa meylli olduğu neokolonial yanaşmalar əvəzinə, ona heç bir mənalı yeni heç nə təklif etmir.

**_V.VƏLİYEV_**

# İnsan ekosistemi necə məhv edir?

**İnsan həyatı, heyvanların həyatı, ətraf mühit - ümumiyyətlə, canlı-cansız aləm birləşərək bir zəncir yaradır. Ekosistemdə yaşamaq üçün bir-birinə ehtiyac duyan müxtəlif həyat tərzləri və canlı növləri var. Əgər zənciri təşkil edən halqaların birində qırılma varsa, bundan bütün sistem zərər görür. Təbiət müxtəlif tarazlıqlara əsaslanır və insanlarla ətraf mühit arasındakı əlaqə təbiətin ən böyük tarazlıqlarından biridir.**



Ekosistem, canlıların və onları əhatə edən cansız mühitin kontaktı nəticəsində formalaşır. Ekosistem davamlı ekoloji sistemdir və təbii mühitimiz də ekosistemin bir hissəsidir. Təbii mühit, insan əli ilə yaradılmayan və özbaşına meydana gələn mühitdir. Ekosistem, heyvanların və ya bitkilərin hava, torpaq və ya günəşlə olan təmasından yaranır. Biz insanlar bu tarazlıqda doğulduğumuz üçün, əslində, necə mükəmməl bir sistemlə əhatə olunduğumuzu dərk etməyə bilərik. Halbuki qurulan bu tarazlıq əslində təbiət möcüzələrinin ən böyük sübutudur.

Ekosistemi təşkil edən halqalar da özlüyündə iki hissəyə bölünür - quru ekosistemi və su ekosistemi. Quru ekosisteminə meşələr, dağlar, düzənliklər, dərələr, mağaralar və s. kimi yerlər daxildir. Su ekosistemi isə duzlu və ya şirin sudan ibarət ekosistemlərə verilən addır. Məsələn, dənizlər, bataqlıqlar, okeanlar və çaylar su ekosistemlərinə nümunədir. Hətta kiçik bir gölməçə də su ekosistemidir. Su ekosistemlərinə suda yaşayan canlılar, həşərat sürfələri, ilbizlər, qurdlar, bakteriyalar, müxtəlif növ göbələklər və oxşar canlılar daxildir.

Ekosistemlər çox böyük bölgələri əhatə edir. Ekosistemlərdəki canlı və ya cansız olmasından asılı olmayaraq hər bir varlığın vəzifə və məsuliyyəti var. Əgər ekosistemdə hər hansı bir canlı növünün nəsli tükənirsə tarazlıq tamamilə pozula bilər. Canlılar ekosistemin



vacib hissələridir, lakin hər canlı hər ekosistemdə yaşaya bilməz. Canlının bir ekosistemdə yaşaması üçün onun xüsusiyyətlərinin həmin ekosistemlə tam uyğun olması lazımdır.

Qeyd etdiyimiz kimi, təbiətin özü tarazlığa əsaslanır. Ekosistemin pozulması ətraf mühitin strukturuna və fəaliyyətinə birbaşa təsir göstərir. Əgər ekosistemdəki tarazlıq pozularsa dünya coğrafiyasında dəyişikliklər baş verir. Çünki ekosistemin əsas elementləri iqlim, torpaq, hava, bitki və heyvan kimi faktorlardır. Ekosistemdə baş verən problem bu faktorlara birbaşa təsir edəcək.



Torpağın su və küləklə yer dəyişdirməsi və ya ətraf ərazilərdə bitki örtüyünün azalması müəyyən dərəcədə eroziyaya səbəb olur. Ekosistem pozularsa, eroziyalar baş verə bilər. Bundan əlavə, əgər ekosistem pozularsa, su ehtiyatları azala bilər. Suyun çirklənməsi və quruması nəticəsində ətraf mühitdə istifadəyə yararlı suyun miqdarı azalır və bununla da bütün tarazlıq pozulur. Ekosistemdə müşahidə edilən problemlərin mənfi təsirini canlılar üzərində müşahidə edirik. Ekosistemdə fiziki və ya kimyəvi şəraitdə baş verən dəyişikliklər canlıların sağ qalmasına birbaşa təsir göstərir. Bəziləri pozulan tarazlığa uyğunlaşa bilsə də, bəziləri bu dəyişikliyə tab gətirə bilmir və nəsli tükənir.

Ekosistem canlıların gözlənilməz ölümü, təbii fəlakətlər və ya insandan qaynaqlanan səbəblər nəticəsində pozula bilər. Məsələn, Vyetnam müharibəsi zamanı yamyaşıl meşələrin bombalanması bir çox canlının yaşayış yerlərinin itirilməsinə səbəb oldu. Eləcə də müxtəlif ölkələrdə baş verən meşə yanğınları da minlərlə canlının məhvinə gətirib çıxardı. O cümlədən, sənayenin inkişafı adı ilə ağacların və bitki örtüyünün məhv edilməsi, torpaqlardan istifadə üsulunun zərərli olması, asfaltlanmış ərazilərin genişləndirilməsi ekosistemə böyük ziyan vurur. Bütün bunlar təkcə torpağın ekologiyasına deyil, həm də su balansına təsir göstərir. Urbanizasiya ilə əlaqədar olaraq, şəhər əhalisini və sənayesini təmin etmək üçün daha çox suya ehtiyac duyulur, bu da daha dərin quyuların qazılmasına və ya suyun daha uzaq yerlərdən daşınmasına və beləcə yer altının aşınmasına səbəb olur.



Şəhər əhalisinin əhatə dairəsinin artırılması bitki örtüyünün azalması deməkdir, bu isə bitkilərin atmosferə buraxdığı su buxarının miqdarının azalması deməkdir. Bundan əlavə, yeraltı suların çirklənməsi şəhər yollarında buzları əritmək üçün istifadə edilən duzun drenaj sisteminə axması ilə baş verir.

İnsan əli ilə təbiətin necə məhv edildiyini görə bilmək üçün dünyanın istənilən nöqtəsinə baxmaq kifayətdir. Son 1000 il ərzində insanların torpağa, suya və havaya təsiri, meşələrin qırılması, torpaqların asfaltlaşdırılması, yanğınlar törədilməsi təbiətə bərpası mümkün olmayan zərərlər vurub. Bu cür problemlər, son illər dünyada əhali artımı və urbanizasiya ilə kulminasiya nöqtəsinə çatdı.

İnsanların yaratdığı istixana qazları və buna bağlı olaraq baş verən iqlim dəyişikliyi, bitki örtüyü, orqanizmlər və heyvanlar üzərində təsiri nəticəsində sağ qalmaq uğrunda amansız mübarizə gedir. Əfsus ki, bir çox insanlar ekoloji tarazlığın həyatımızda oynadığı əhəmiyyəti bilmir, bir plastik butulkanın və ya bir polietilen torbanın torpaqda 1000 il əriməd iyindən xəbərsizdir. Biz bu gün yaşamaq üçün təbiəti məhv edirik, lakin unuduruq ki sabah yaşamaq üçün normal ekologiya olmayacaq.

Dünyanı ekoloji cəhətdən daha təmiz saxlamaq mümkündür. Bunun üçün bütün dünya əhalisi ən azı primitiv ekoloji savadlılığa yiyələnməlidir. Məsələn, kanalizasiya suları və kənd təsərrüfatı suları göllərdə və çaylarda uzun müddət qalarsa yosunların artmasına səbəb olur, lakin bu yosunların böyüməsinin günəş işığının qarşısını aldığını, suda oksigeni azaltdığını, gölməçədə yaşayan su canlılarını öldürdüyünü çoxumuz bilmirik. Yaxud, həddindən artıq balıq ovu sudakı biomüxtəlifliyin itməsinə, bəzi balıq növlərinin kürü tökmədən ovlanması nəslinin kəsilməsinə səbəb olur. Həmçinin, kənd təsərrüfatı sahəsində istifadə edilən gübrələrin həddindən artıq olması torpağa və suya nə qədər zərər verir, əksər fermer bunun fərqində deyil. Yuyunarkən, qab yuyarkən axıtdığımız içməli suyun hər damlası bəşəriyyət üçün hansı dəyərər sahibdir, bunu da bilmirik. Elektrik enerjisindən istifadə edərkən qənaət etməməyimiz ekologiyaya necə zərər verir, fərqində deyilik.

1927-1987-ci illər arasında Yer kürəsinin əhalisi 5 milyarda yüksəldi. 1999-cu ildə ümumi əhalinin sayı 6 milyarda çatdı və 2050-ci ildə Yer kürəsində təxminən 9 milyard insanın yaşayacağı təxmin edilir. Lakin bu rəqəmin 2050-ci ilədək 9 milyard yox, daha çox olacağı barədə ehtimallar da var. Bunu belə təsəvvür edin: kiçik bir akvariumda həddindən artıq çox balıq saxlamaq akvariumunuzu çirkləndirə, balansı poza bildiyi kimi, planetdə çoxlu insan da ekoloji tarazlığı poza bilər. Su ehtiyatı insan sayına adekvat deyil, bu səbəbdən də təbii su qaynaqlarını mühavizə etməli, içməli suyun hər damlasının qayğısına qalmalıyıq.

Unutmayaq, ekoloji tarazlıq zərifdir və Yerin ekosistemləri insan təzyiqi səbəbi ilə zəifləyib. Ekoloji tarazlığı qorumaqla biz öz gələcəyimizi qarant altına almış oluruq. İnsanlar daha çox təkrar emal etməklə, daha az su və elektrik enerjisindən istifadə etməklə və vəhşi təbiətə daha hörmətlə davranmaqla Yer planetinin ömrünü uzada bilər. Bütöv ekoloji tarazlıq planetə heç bir müdaxilə olmadıqda əldə edilir. Bu o deməkdir ki, hər bir orqanizm yaşamaq və çoxalmaq üçün kifayət qədər resurslara malik olmalıdır. İnsanın yaşamaq, qidalanmaq kimi ehtiyacları var, lakin digər canlıların da bu ehtiyacını düşünmək lazımdır. Biz həm özümüz, həm də gələcək nəsillər üçün planetimizi sağlam saxlayan tarazlığı qorumaq üçün birlikdə işləməliyik. Hərəmiz öz sahəmizdə bu tarazlığı qorusaq dünya daha dözümlü olacaq.

***Lalə Mehralı***

# İstismara yararsız avtomobillər necə yığışdırılacaq?

***Bir neçə ildir ki, müzakirələr gedir ki, Azərbaycanda avtomobil parkı yenilənəcək, istismar müddətini başa vuran yararsız maşınlar utilizasiyaya göndəriləcək. Bunun əvəzində vətəndaşlara ucuz qiymətə və güzəştli şərtlərlə yeni avtomobil almaları üçün şərait yaradılacaq.***



Belə ki, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın 7.3.7.1-ci bəndində Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizlik səviyyəsini yüksəltmək, ekoloji vəziyyəti yaxşılaşdırmaq, eləcə də yerli avtomobil istehsalını stimullaşdırmaq məqsədilə köhnə, texniki-təhlükəsizlik və ekoloji cəhətdən yararsız nəqliyyat vasitələrinin utilizasiya proqramının hazırlanması və tətbiqi nəzərdə tutulmuşdu. Dövlət proqramı başa çatıb, lakin proses hələ də başlamayıb. Yalnız utilizasiya vergisi tətbiq edilib.

Bu layihənin həyata keçirilməsi zamanı vətəndaşları maraqlandıran məsələlərdən biri köhnə avtomobillərin hansı qaydada utilizasiyaya göndəriləcəyi, hansı şərtlərlə yeni avtomobilləri ala biləcəkləridir. Utilizasiyası bütün ölkələrdə olduğu kimi yalnız tam könüllülük əsasında baş verə bilər və bu istiqamətdə müəyyən stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir Belə ki, vətəndaş könüllü şəkildə nəqliyyat vasitəsini utilizasiyaya verdikdən sonra ona təqdim ediləcək təsdiqedici sənəd əsasında yeni istehsal olunmuş avtomobil almaq istədikdə müəyyən qədər güzəşt əldə edir.





Hazırda Azərbaycanda təxminən 1,5 milyon avtomobil var. Avtomobillərin 80 faizindən çoxunun yaşı 10-30 il, 20 faizinin isə yaşı 30 ildən çoxdur. Yollarda xeyli sayda istismar müddətini başa vurmuş, texniki cəhətdən yararsız və təhlükəli maşınları görmək mümkündür.

Bir çox ölkələr avtoutilizasiya proqramı həyata keçirərək öz avtomobil parklarını yeniləyib və nəticədə həm yol qəzalarının sayı, həm də ekoloji çirklənmə xeyli azalıb. Məsələn, Rusiyada demək olar ki, 13 ildir köhnə avtomobillərin utilizasiyası proqramı qüvvədədir. Dövlət bu proqramın həyata keçirilməsi üçün federal büdcədən hər il böyük məbləğdə vəsait ayrılır. Bu ölkədə ildə Rusiya istehsalı olan 120-130 mindən çox avtomobil satılır, dövlətin utilizasiya proqramının büdcəsi isə 50 milyard rubl (təxminən 1 milyard manat) civarında təşkil edir.

Dövlət texniki vəziyyəti bərbad olan maşınları münasib qiymətə alır və vətəndaşa yeni avtomobil almaq üçün güzəştli və uzunmüddətli kredit verir. Yerli avtomobillər belə vətəndaşlara daha ucuz qiymətə təklif olunur. Beləliklə, Rusiya öz vətəndaşlarını yerli markalara aid avtomobilləri almağa həvəsləndirir. Nəticədə son 13 ildə Rusiyanın avtomobil parkının yarıdan çoxu yenilənib.

Qeyd edək ki, Rusiyanın öz yerli avtomobil zavodları onlarla modeldə müasir avtomobillər istehsal edir və qiymətləri də çox münasibdir. Bu səbəbdən vətəndaşlar çox rahat şəkildə salondan yeni maşın ala bilirlər.



Bəs yerli avtomobil istehsalı olmayan ölkələrdə bu proses necə ola bilər? Azərbaycanda yerli model avtomobil istehsalı olmasa da, İran və Çin avtomobil modellərinin bəzilərinin yığımı mövcuddur. Bu yaxında Rusiya istehsalı "Lada" modellərinin də yığımına başlanıb. Lakin bu yerli istehsal sayılmadığından onların qiyməti elə də ucuz deyil. Ən ucuzlarının qiymətləri 18-20 min manat arasındadır. Bu halda vətəndaş özünün hazırda bazar dəyəri 3-5 min manat olan avtomobilini verib 4-5 qat qiymətə yeni maşın ala bilməyəcək, çünki dövlət onun köhnə maşınına uzağı 1-2 min manat ödəyəcək. Bu isə yeni maşının qiymətinin maksimum 10 faizini təşkil edəcək. Qalan fərqi hətta kreditə bölsələr belə vətəndaş uzun illər ayda 400-500 manatdan az olmayaraq vəsait ödəməlidir ki, bu da böyük əksəriyyət üçün mümkün deyil.

Bu halda yeganə çıxış yolu, dövlətin həmin maşınları real bazar dəyərinə alması, ölkədə yığılan maşınları və xaricdən gətirilən maşınları onlara maya dəyərinə verməsidir. Həm də faizsiz və uzunmüddətli kreditlə. Yalnız bu halda bu proqram effektli və ədalətli ola bilər. Üstəlik, həmin avtomobillərin detallarının güzətşli satışı təşkil olunmalıdır. Çünki yeni model maşınların ehtiyat hissələri çox bahadır, demək, məsələ təkcə maşını almaqla bitmir, onu saxlaya bilmək də var.

Daha bir məqamı nəzərə almaq lazımdır ki, bir sıra vətəndaşlarımız ucuz və köhnə avtomobillə yük daşıyır, xidmət göstərir, öz təsərrüfatı üçün istifadə edir və bununla dolanır. Salondan alınmış təzə maşınla o bunu edə bilməyəcək. Yeni maşının amortizasiya və təmir xərcləri dəfələrlə baha başa gəldiyindən bu maşınla həmin işi görməsi mümkün olmayacaq. Demək belə vətəndaşlara dövlət uzun müddətli kredit verməlidir ki, o ili nisbətən yeni olan və texniki cəhətdən daha yaxşı vəziyyətdə olan başqa bir işlənmiş maşın ala bilsin. Məsələn, 2-3 min manatlıq xarab maşınının əvəzinə 7-8 min manata daha yaxşı vəziyyətdə olan işlənmiş maşın ala bilsin. Bu halda dövlət onun maşınını bazar dəyərinə- 2-3 min manata qəbul etməli, ona 5 min manat krediti azı 5 il müddətinə cüzi faizlə verməlidir. Yalnız bu halda köhnə və yararsız avtomobil sahibləri bunda maraqlı ola bilərlər.

Mövzu ilə bağlı daha bir məsələ var ki, bir çox maşınların istehsal ili çox köhnə olsa da, texniki vəziyyətləri sazdır və ya demək olar ki, ideal vəziyyətdədir. Hətta yaşı 50 ildən çox olan retro avtomobillərin qiyməti çox bahadır. Dünyanın bütün ölkələrində 50-100 arası yaşı olan avtomobillər istifadə olunur, əlbəttə, texniki vəziyyətləri normal halda. Demək avtomobillərə yaşına görə yox, texniki vəziyyətinə görə yanaşılmalıdır. Əgər avtomobil texniki baxışdan keçirsə demək istifadəyə yararlıdır.

Və ya əksinə, elə maşınlar var ki istehsal ili nisbətən yenidir, amma ağır qəza keçirib və ya çox pis istifadə edildiyindən texniki vəziyyəti bərbad haldadır. Yəni, 10 ilin maşını 30 ilin maşınından daha pis vəziyyətdə ola bilər. Lakin bazar dəyəri 10 min manatdan aşağı deyil. Bu halda həmin maşını dövlət necə, hansı qiymətə qəbul edəcək? Sahibi o maşını 1-2 min manata verməyəcək. Bundansa detallarını söküb satsa dəfələrlə çox gəlir əldə edər.

Üstəlik, bizdə gömrük rüsumları çox yüksək olduğundan ölkəyə gətirilən yeni maşınlar da dəyərindən 2 dəfə baha olur. Deməli, insanlar tətə maşın ala bilmir və məcburən köhnələri birtəhər təmir edib istifadə edir.

Göründüyü kimi, bu proqramla bağlı hələ də aydın olmayan xeyli mürəkkəb məsələ var. Elə bir optimal yol tapılmalı və şərtlər elə ədalətli olmalıdır ki, köhnə avtomobil sahibləri bunda maraqlı olsun.

Ən əsası, bu proqram optimal və ədalətli şəkildə həyata keçirilsə, ölkənin avtomobil parkı 5-10 il ərzində əsaslı şəkildə təzələnə bilər. Nəticədə həm qəzaların və ölümlərin sayı azalar, həm də ekologiyamız daha az korlanar.

***Elçin Bayramlı***

# Andrey Fyodorov: “Ermənistandakı etirazlar mənasızdır, Qarabağ mövzusu bitmişdir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*









***Rusiya Federasiyası xarici işlər nazirinin keçmiş müavini Andrey Fyodorov ”Moskva-Baku” portalına müsahibəsində Ermənistanda müxalifətin etirazlarını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Andrey Vladimiroviç, Ermənistanda müxalifət hərəkatının davam edən etirazları və ənənəvi olaraq qarşıya qoyduğu məqsəd- ölkədə hakimiyyət dəyişikliyi ilə bağlı proqnozlar nədən ibarətdir?***

- Bu gün orada baş verənlər Paşinyanın siyasətində problemlərin olması məsələsi deyil, Ermənistan cəmiyyətinin hazırkı vəziyyətinin əksidir. Erməni cəmiyyətinin hələ də çox ciddi şəkildə bölündüyünün nümayişidir. İkincisi, 2-ci Qarabağ müharibəsindən sonra regionda formalaşmış siyasi və geosiyasi reallıqları cəmiyyət hələ də dərk edə bilmir. Üçüncüsü odur ki, Ermənistan cəmiyyətində təbii ki, kifayət qədər insan var ki, əvvəllər işğal olunmuş ərazilərin itirilməsini ”xarici təzyiq” nəticəsində geri qaytarmaq mümkün olduğuna inanır. Bu, Paşinyanın siyasəti ilə bağlı deyil, Ermənistanın bundan sonra necə olacağı ilə bağlı mələsədir. Əgər o, bölünmüş cəmiyyət vəziyyətində qalmaqda davam edərsə, o zaman ölkənin problemlərin həllinə qovuşacağına ümid etmək çətindir.

Reallıq budur ki, müxalifətin gündəmi, Nikol Paşinyanın hakimiyyətdə olduğu bütün illərdə olduğu kimi, son dərəcə məhduddur: Bakı və Moskva üçün artıq qapalı olan Qarabağ məsələsinə, revanşizmə qayıtmaq üçün müxtəlif variantlardan söhbət gedir. Müxalifətin əsas problemi də budur: söhbət ölkənin gələcək inkişafı məsələləri, dövlət quruluşu məsələləri deyil, keçmiş gündəmdir. Ona görə də müxalifətin çıxışlarının Ermənistanda hər hansı dəyişikliyə səbəb olacağını gözləməzdim. Artıq mövcud olmayan bir şeyi necə diqqət mərkəzində saxlaya bilərsiniz?

***- Müxalifətin gündəmi genişləndirmək problemi nədir? Niyə İkinci Qarabağ Müharibəsindən sonra bunu edə bilmədi və ya istəmədi?***

- Gündəmi genişləndirmək ancaq birləşmiş cəmiyyətdə mümkündür. Ermənistan cəmiyyəti isə, dediyim kimi, son dərəcə parçalanmış qalmaqda davam edir. Müxalifət çoxdan başa düşür ki, bu və ya digər şəkildə, yalnız Qarabağ gündəmi, ərazilərin Azərbaycana ”təslim edilməsi” gündəmi az-çox cəmiyyətin müxtəlif təbəqələrini birləşdirə bilər. Çünki bu, ənənəvi olaraq erməni cəmiyyəti üçün ağrılı məqamdan da artıqdır. Ona görə də müxalifət bu ”alət”lə insanları birləşdirməyə çalışır. Amma müxalifət başa düşmür ki, bu, mövcud hakimiyyəti devirmək üçün kifayət deyil.

Müxalifət bu etirazları hakimiyyətin 8 ildir ki, insanların cari problemlərini həll edə bilmədiyi üçün etmir. Onun belə bir vəzifəsi yoxdur. Məqsəd cəmiyyəti ağrı ilə qarışdırmaq və əhalinin bu ağrısını müharibəni uduzan və sanki ”əraziləri təslim edən” birinə qarşı yönəltməkdir. Amma Ermənistan əhalisinin əksəriyyəti də Qarabağ məsələsi ətrafında bütün bu hay-küydən yorulub.

Müxalifət bu gün nə edir və cəmiyyəti necə ayağa qaldırmağa çalışır- mən bunu sonuncu dalğa adlandırardım... Bu dalğa sadəcə, sahili yuyacaq, vəssalam. Və bir nəticə əldə etmədən, növbəti təkan almadan qumun içinə girəcək. Bu, bu gün olduqca aydın görünür. Dini və mülki amillərin birləşməsi həmişə nəzərdə tutulduğu kimi işləmir. Müxalifətə rəhbərlik edən arxiyepiskop ruhani lider olmağa çalışanda siyasi lider ola bilməz. Tavuş arxiyepiskopu vəzifəsindən istefa versə də, yenə də ruhani olaraq qaldı. Bu barədə rəsmi məlumat verilib. O, siyasətçi deyil. O, ancaq din xadimi kimi konsolidasiya edən amil ola bilər. O, yalnız cəmiyyətin ilhamverici rolunu oynayır, təşkilatçı deyil. Ancaq əsl təşkilatçı yoxdur- hər şey kortəbii şəkildə baş verir. Mitinqlər kortəbii olduqda isə kifayət qədər tez bitir. Hər dəfə erməni müxalifəti mütəmadi olaraq sabaha hər şey olduğunu bəyan etsə də, bu belə deyil. Arxiyepiskopun normal hökumət qura biləcəyini təsəvvür etmək qeyri-realdır.

Əgər kütlə onu baş nazirliyə namizəd elan edibsə, bu, qeyri-legitimdir. Onun namizədliyini heç bir parlament qüvvəsi irəli sürməyib. Parlament onu seçməlidir. Parlamentdə isə Ermənistanın baş nazirinin fraksiyası çoxluğa malikdir. 2018-ci il çevrilişi zamanı Paşinyan hadisəsində olduğu kimi, çevriliş zamanı hakimiyyət dəyişikliyi baş verə bilər. Amma müxalifətin indiki baş naziri vəzifəsindən uzaqlaşdırmağa gücü çatmır. Paşinyanı aradan götürməyin niyə mümkün olmayacağını artıq qeyd etmişəm.

Birincisi, o, parlamentə nəzarət edir. İkincisi, öz əhalisinə xaricdən dəstəyi olduğunu nümayiş etdirir. Bir çox ermənilər, eləcə də gürcülər üçün Aİ-dən dəstək, Aİ-yə üzvlük, Aİ-yə vizasız giriş məsələsi çox vacib mövzudur. Paşinyan da bunun üzərində oynayır. O, müxalifətdən daha geniş, daha konkret gündəm təklif edir. Müxalifət diqqət yetirdiyi məsələlər Ermənistanı keçmişə sürükləyir və onu real gələcəyin olmamasına məhkum edir. Paşinyan bu gün üçün gündəm, inkişaf və gələcək üçün gündəm təklif edir. Həm də heç vaxt Ermənistana aid olmayan bir şey üçün sonsuz əzab-əziyyət deyil. O, insanları real gündəmlə cəlb edir: hə, uşaqlar, mən Qarabağla məşğul olmaq istəmirəm, çünki ora bizim deyil. Mən Ermənistanın gələcək inkişafı proqramını, onun keçdiyi yolu təqdim edirəm. Mən hər kəsi məhz bu prosesdəyeni Ermənistanın formalaşmasında iştirak etməyə çağırıram. O, deyəndə ki: tarixi Ermənistandan imtina edərək əsl Ermənistanın xeyrinə praqmatist kimi çıxış edir, bunun real olduğunu, burada nəsə edə biləcəyini anlayır. Ona görə də bu gün Paşinyanı əvəz edəcək real siyasi lider yoxdur.

Müxalifətin şüarları- Qarabağı qaytar, Qarabağa qayıt- sadəcə olaraq cəmiyyətin səfərbərlik formasıdır. Ermənistanda tarixi geri qaytarmaq, Azərbaycandan nəyisə geri almaq istəməyi indiki Azərbaycan hakimiyyəti dövründə mümkün deyil. Ermənistanın indiki vəziyyətini nəzərə alsaq, bu, mümkün deyil. Tarixi geri qaytarmaq üçün hərbi güc lazımdır. Azərbaycanla müqayisədə bu, Ermənistanda yoxdur. Tarixi geriyə qaytarmaq üçün konkret ölkədə, indiki halda Ermənistanda cəmiyyət konsolidasiya edilməlidir. Belə ki, bütün ölkə belə bir nöqteyinəzərdən çıxış etsin ki, bunlar atılmalı olan addımlardır. Ermənistanın Qarabağı yenidən nəzarətə götürməsi mümkün deyil. Və bir çox insan da bunu qəbul etmir və tanımır. Bir çoxları isə hadisələrdən yapışıb daha yüksəklərə qalxmaq üçün ”Qarabağ məsələsindən” siyasi kapital kimi istifadə edirlər.

***- Ermənistandakı etirazlarla bağlı Rusiyanın mövqeyi necədir?***

- Rusiya prezidenti dəfələrlə bildirib ki, regionda vəziyyət dəyişib, Ermənistan özü də Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb və rəsmi Moskvanın mövqeyi ondan ibarətdir ki, regionda hamının, o cümlədən Ermənistanın irəli getməsi lazımdır. Budur, Qarabağ münaqişəsi həll olunub, Moskvaya sülh və sabitlik lazımdır, regionda əməkdaşlıq qarşılıqlı faydalıdır.

Ermənistanla indiki münasibətlərdə Moskva üçün çətin amil də var. Göründüyü kimi, KTMT ətrafında Ermənistanla bağlı əhvalat tezliklə Moskva ilə İrəvan arasında münasibətlərdə yeni neqativ müstəviyə keçəcək.

Amma fakt odur ki, bütün dünyada, o cümlədən Rusiyadakı erməni diasporunda Qarabağla bağlı hələ heç nəyin bitmədiyi, silahın hələ də atılmadığı mövqeyindən çıxış edən dairələr var. Nəhayət bu ”tamaşa”nın bitməsi ilə başqa nəyi düzəltmək olar. Düşünürəm ki, Ermənistanda hər şeyin, vəziyyətin dönməz olduğunu başa düşmək üçün regionda sülh gündəminin mövcudluğunu nəzərə alsaq, daha iki, üç və ya dörd il keçməlidir.

Təbii ki, İrəvan bu gün Azərbaycanla sülh gündəliyinin həyata keçirilməsində iştirak etməyə başlayıb. Bu yolda irəliləyiş var. Allaha şükür. Çünki bundan əvvəl biz bu sahədə çıxılmaz vəziyyətlə üzləşmişdik. Amma Paşinyanın bu məsələdə nə dərəcədə tam ardıcıl olacağını söyləmək çətindir. Yenə də hakimiyyətdə olduğu bütün dövr göstərdiyi kimi, o, situasiyalı liderdir: situasiyaya əsasən qərarlar verir. Axı Ermənistanın siyasətində, xüsusən də siyasətçilərin və diplomatların fikirlərində Qarabağ məsələsini gündəmdə saxlamağa çalışan Fransanın simasında çox güclü xarici amil var. Paşinyanın hakimiyyəti saxlamaq və eyni zamanda əhaliyə nə isə təklif etməli olduğu bir şəraitdə ”ikiüzlü” olmalıdır.

Moskva Ermənistandakı vəziyyəti izləyir. Necə ki, Gürcüstanda vəziyyətin necə inkişaf edəcəyinə baxır. Bu gün Cənubi Qafqazda vəziyyət ənənəvi olaraq ağırdır. İndiki vəziyyətdə Rusiya üçün, xüsusən də Ukrayna faktorunu nəzərə alaraq, baş verən hər şeyin nəticələrinə baxmaq və anlamaq vacibdir. Rusiya üçün isə indi ən önəmlisi qəfil hərəkətlər etməməkdir. Bizə sabitlik və yeni böhran vəziyyətlərinin olmaması lazımdır.

Bunun fonunda Gürcüstan və Ermənistanda etirazları müşahidə edəndə bu gün Azərbaycan Cənubi Qafqazın ən sabit dövlətidir. Həm sabitdir, həm öz gündəmi var, həm də məqsədləri, məqsədə çatmaq üçün mexanizmləri var. Dövlətin mövqeyinin perspektivləri yaxşıdır. Ona görə də, seçkidən sonra Vladimir Putin tərəfindən Kremldə ilk qəbul edənlərdən biri İlham Əliyev olub. Və İlham Əliyev də yenidən prezident seçildikdən sonra Rusiyaya ilk səfər edənlərdən olub.

***- Moskva Ermənistandakı səfirinin məsləhətləşmələrə çağırılmasını heç bir təfərrüatı ilə şərh etmir...***

- Əlbəttə, bu barədə şərh verə bilmərik. Çətinlik sadəcə bir faktdır. Hamıya aydın olmalıdır ki, belə bir jestin həm siyasi, həm də diplomatik əhəmiyyəti var. Amma biz Paşinyanla münasibətləri situasiyaya uyğun qurmağa davam edəcəyik. Çünki o, Ermənistanın əsl lideridir. O, obyektiv reallıqdır. Bu o deməkdir ki, həm Rusiyanın, həm də Azərbaycanın siyasətində bu obyektiv reallıq nəzərə alınmalıdır. Haradasa danışıqlar aparmaq lazımdır, haradasa sadəcə gözləmək lazımdır.

***- İrəvanın məlum anti-Rusiya siyasətini və bəyanatlarını nəzərə alsaq, səfirin çağırılması ilə bağlı Moskvanın Paşinyana hansısa şərtlər qoymağa çalışacağı variantı varmı?***

- Məncə, Moskvanın indi buna vaxtı yoxdur. Onsuz da çoxlu problemlərimiz var. Ani hərəkətlər etməliyik.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
30 may
2024-cü il

# "Efirlərdə çox böyük boşluq var və həyəcan təbili çalmaq lazımdır"



**TV-lərimizin mənasız verilişlərini cəmiyyət tələb edir? Daha faydalı informasiya, əyləncəli verilişlər göstərmək niyə bu qədər çətindir? SİA mövzu ilə bağlı Azərbaycan filosofu, pedaqoq, fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub və şair, publisist, sosioloq Əhməd Qəşəmoğlunun fikirlərini öyrənib.**

Şair, publisist, sosioloq Əhməd Qəşəmoğlu: "Televiziyalarımızın mənasız verilişlərinin cəmiyyət tərəfindən tələb olunub-olunmaması sual altındadır. Bu, bir qədər televiziya işçilərinin uydurmasıdır. Onlar deyirlər ki, bu verilişlərə camaat daha çox baxır. Camaat daha çox baxırsa, buradan aydındır ki, bizim əhalinin estetik zövqündə, mənəvi tələbatında müəyyən problemlər var. Onların həll olunmasına kömək etmək lazımdır. Necə ki, bir vaxtlar Molla Nəsrəddin jurnalı, Mirzə Ələkbər Sabir kömək edirdi. Amma öz metodlarımızla kömək etmək lazımdır. Cəlil Məmmədquluzadəni təkrar etmək düzgün deyil. Televiziyalarımız indiki vaxtda niyə yüksək reytinqli veriliş verə bilmir? Ona görə ki, orada bu verilişləri hazırlaya biləcək işçilər, jurnalistlər, televiziya işçiləri yoxdur. İkinci də ölkədə televiziyanın özünün bir platforması olmalıdır. Televiziya bilməlidir ki, o nəyə xidmət edir.

Televiziyalar da elə şəkildə olmalıdır ki, onların əsas işi əhalinin keyfiyyətinin qalxmasına kömək etsin. Əhalidə bu cür mənəvi aşınmalar, mənəvi sarsıntılar, psixoloji, arzu olunmayan ovqat yaratmasınlar. Əhali arasında qarşıdurmaya səbəb olan verilişlər verməsinlər. Burada çox böyük boşluq var və həyəcan təbili çalmaq lazımdır".

Azərbaycan filosofu, pedaqoq, fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub: "Ümumiyyətlə, insan psixologiyası belədir ki, ona nəyi təqdim edirsənsə, tədricən ona alışır. Əgər menyuda təkcə bir yemək varsa, onu yeməyə məcburuq: "Azərbaycan insanı yalnız mənasız, düşük şou verilişlər istəyir" cümləsi xalqımıza qarşı həqarətdir. Bu o deməkdir ki, bizim xalqımızın intellekti yoxdur, yalnız əyləncə istəyir. Halbuki əksinədir. Azərbaycan insanı zəkalıdır, ciddi məzmunlu verilişlər də istəyir. Əyləncənin öz yeri, lakin faydalı verilişlər də olmalıdır, axı. Təəssüf ki, TV-lərimiz belə verilişlər vermirlər. Səbəbini belə izah edirlər: belə verilişlərin reytinqi zəifdir. Yalandır. Maraqlı, faydalı intellektual verilişlərin öz auditoriyası var. Sadəcə bunu tamaşaçıya təqdim etmək lazımdır".

**Söylü Ağazadə**

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# XƏBƏRDARLIQ: Bu gün 35 dərəcəyə qədər isti olacaq



Mayın 30-na gözlənilən hava proqnozu açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20° isti, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 65-75 %, gündüz 45-50 % olacaq. Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu 15-20° isti, gündüz 28-33°, bəzi yerlərdə 35° isti, dağlarda gecə 7-12° isti, gündüz 14-19° isti olacaq.

# Daha bir idmançımız Yay Olimpiya Oyunlarına lisenziya qazanıb

Azərbaycan triatlonçusu Rostislav Pevtsov Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya qazanıb. Gənclər və İdman Nazirliyindən SİA-ya verilən məlumata görə, yeni açıqlanan yekun olimpiya reytinqində Pevtsov 52-ci yerdə qərarlaşıb. Onun lisenziyasını Dünya Triatlonu təsdiqləyib. Qeyd edək ki, Pevtsov üçüncü dəfə olimpiadada iştirak edəcək.



# Nadir "Ferrari" bu qiymətə hərraca çıxarılır

**"Zagato" dizaynlı nadir "Ferrari 348" hərraca çıxarılacaq. "Kupe Elaborazione" adlanan bu "Ferrari"cəmi on ədəd istehsal edilib. SİA xəbər verir ki, adı çəkilən avtomobil böyük yan hava girişləri, şəffaf mühərrik bölməsinin qapağı və qaldırıcı spoyler ilə fərqlənir. Mühərrik standartdır: 300 at qüvvəsi və 323 Nm fırlanma anına malik atmosferli V8 3.4.**




Avtomobil 350-400 min avro dəyərində qiymətləndirilir. Bu avtomobilləri hazırda satışda görmək demək olar ki, mümkün deyil. Onlar 1990-cı illərin əvvəllərində hazırlanıb. Hərraca çıxarılan "Ferrari 348 Zagato Elaborazione"nin yürüşü cəmi 17 094 kilometrdir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200